

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 29 (24.464)

2 avqust 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Dil xalqın böyük sərvətidir

## Azərbaycan dilinin qorunması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır



***Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV:***

*"İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir".*

***Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas, bəlkə də, yeganə təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamışdır. Qədim tarixə malik olan, əsrlərdir, xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz min illərin müxtəlif burulğanlarından alnıaçıq, üzüağ çıxaraq müasir dövrə qədər gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb və bayraq kimi müqəddəsdir.***

Səhifə ➡ 2

## Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I); 2025, № 4 (I kitab), maddə 379) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Əsas icraçı orqan (qurum)" sütununa "(qurum)" sözündən sonra "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri əlavə edilsin;

1.2. 8.1.6-cı yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununa "DGK" akronimindən sonra ", RİNN, AAYDA, ADY" akronimləri əlavə edilsin;

1.3. 8.5.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "DTA" akronimindən sonra ", ETN" akronimi əlavə edilsin;

1.4. 8.7.5-ci yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununa "NMR NK" akronimindən sonra ", AAYDA" akronimi əlavə edilsin;

1.5. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsinə "ADSEA – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözlərindən əvvəl "AAYDA – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 iyul 2025-ci il*

# Dil xalqın böyük sərvətidir

## Azərbaycan dilinin qorunması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır

*(əvvəli 1-ci səhifədə)*

Bu, bir faktdır ki, Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, qorunması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev və Azərbaycan dili... Bu iki ad XX əsrin 70-ci illərindən həmişə qoşa çəkilmişdir. Sovet hakimiyyəti dövründə, xüsusən 70-ci illərə qədər əhalisinin əksəriyyətinin azərbaycanlılardan ibarət olmasına baxmayaraq, respublikamızda Azərbaycan dili hakim dil deyildi. Ana dilimizin inkişaf etdirilməsi və zənginləşdirilməsi üçün dövlət tərəfindən hər hansı bir tədbir görülmürdü. Həmin dövrdə SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndi. Rus dilinin hüquqlarının genişləndirilməsi ilə əlaqədar "vahid dil" siyasəti daha geniş şəkildə təbliğ olunurdu. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq çox riskli və qorxulu idi. Dil məsələsini qabardanlar isə, əsasən, Sibirə sürgün olunurdu. Respublika rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər.

Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Ümummilli Lider Heydər Əliyev SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq məhz ana dilində oxumaq imkanı ilə təmin olunur. Ulu Öndərin bu fikirləri, əslində, ana dilinin dövlət dili statusunu qorumaq məqsədi daşıyırdı.

SSRİ Konstitusiyası qəbul edildikdən sonra müttəfiq respublikaların Konstitusiya layihəsi dərc olunaraq ümumxalq müzakirəsinə verildi. Bu layihədə Azərbaycan dilinin hansı status daşıması məsələsi öz əksini tapmamışdı. Kommunist ideologiyasının hökm sürdüyü o dövrdə əhalinin iştirakı ilə keçirilən müzakirələr, sözsüz ki, formal xarakter daşıyırdı. Buna baxmayaraq, milli ruhlu ziyalılar layihəyə Azərbaycan dilinin salınmamasına narazılıqlarını bildirmişdilər. Respublikanın ozamankı rəhbəri, dahi şəxsiyyət Heydər Əliyev də Konstitusiya layihəsinə Azərbaycan dilinin dövlət dili olması barədə maddə salınmasına çalışırdı. Lakin Moskvadakı rəhbərlər müxtəlif bəhanələr gətirərək bunun qarşısını alırdılar. Xalqını, millətini böyük məhəbbətlə sevən Ulu Öndər isə öz məqsədinə çatmaq üçün fəaliyyətini davam etdirirdi.

Yaranmış ağır vəziyyətə baxmayaraq, görkəmli dövlət xadimi Azərbaycan dilinin dövlət dili statusunun Konstitusiyaya salınması məsələsini birdəfəlik həll etdi. Ümumxalq müzakirəsinə verilmiş Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir əlavənin edilməsi təklif olundu:



"Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Nəticədə, Azərbaycanın Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin təklif etdiyi şəkildə qəbul olundu və Azərbaycan dili dövlət dili statusu aldı. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri oldu. Ulu Öndər bunun la gələcək müstəqil dövlətçiliyin milli atributlarından birini məharətlə qorudu. Bundan sonra isə ana dilimizin inkişafı və qorunması sahəsində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail oldu. Hələ kommunist ideologiyasının hökmranlıq etdiyi bir dövrdə Ulu Öndər deyirdi: ***"Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir".***

Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması, adət və ənənələrimizin yaşadılması məsələlərini də diqqətdə saxlayırdı. Həmin dövrdə qarşıda böyük bir vəzifə dururdu: dövlətçiliyin inkişafı ilə yanaşı, dövlət dilini də inkişaf etdirmək. Dövlət dilini inkişaf etdirmək üçün dövlətçilik təfəkkürü lazım idi. Bu təfəkkür isə ən yüksək səviyyədə Ulu Öndərə xas idi. Bu mənada, Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi də məhz Onun adı ilə bağlıdır. 1995-ci ildə Azərbaycan Respublikasının dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər oldu. Müzakirələrin nəticəsi olaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirildi. Bir-birinin ardınca fərmanlar imzalandı, qanunlar qəbul edildi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi üçün müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, Azərbaycan dilində nəşr edilən kitabların tirajlarının çoxaldılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı. Ana dilimizə göstərilən bu qayğı nəticəsində xalqımızın milli ruhu getdikcə yüksəlir, özünəinamı artır və müstəqillik düşüncələri daha da güclənirdi. Azərbaycan dilinin inkişafı isə daim diqqət mərkəzində saxlanılırdı.

Ulu Öndər Heydər Əliyev şəxsən özü Azərbaycan dilinin qorunmasına və inkişafına xüsusi diqqət yetirirdi. Bu diqqətin nəticəsi olaraq Ulu Öndər 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Tarixi əhəmiyyət kəsb edən bu sənəd dilimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynadı. Həmin Fərmanda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılması da nəzərdə tutulurdu. Dünyanın heç bir dövlətində analoqu olmayan belə bir qurumun yaradılması ana dilimizin tətbiqi işinin təkmilləşdirilməsinə daha səmərəli şəkildə nəzarət etmək və bu prosesi ümummilli maraqlar kontekstində tənzimləmək məqsədi daşıyırdı.

Latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyəti tariximizdə mühüm hadisə olduğunu nəzərə alaraq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 2001-ci il avqustun 9-da daha bir Fərman imzalamışdır. Bu Fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan edilmişdir. Yalnız Ümummilli Liderimiz Heydər Əliyevin imzaladığı bu Fərmandan sonra ana dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə başlanıldı. Məhz bundan sonra respublikada bütün sənədləşmələr latın qrafikası ilə aparıldı. Artıq latın qrafikalı Azərbaycan əlifbası beynəlxalq aləmdə yaxşı tanınır.

Ümummilli Lider Heydər Əliyev yazıçılarla, mədəniyyət işçiləri ilə, gənclərlə görüşlərində Azərbaycan dili, onun saflığı və qorunması məsələlərini həmişə irəli sürmüş və dil mütəxəssislərinə özünün nəzəri göstərişlərini vermişdir. Görkəmli dövlət xadimi bu sahədəki fəaliyyətini, əsasən, iki istiqamətdə qurmuşdur: Azərbaycan dili ilə bağlı söylədiyi nəzəri mülahizələr və Azərbaycan dilinin əməli olaraq tətbiqi ilə bağlı özünün nümunəvi nitqləri. Hamı etiraf edir ki, Ulu Öndər Azərbaycan dilinin üslublarından, zənginliyindən, frazeoloji söz birləşmələrindən məqamında və çox məharətlə istifadə edir, öz nitqini auditoriyaya və seçdiyi mövzuya görə qurur, dil faktlarından, vurğu və intonasiyalardan yüksək səviyyədə istifadə edirdi.

Böyük dövlət xadiminin daxili və xarici siyasəti, həmçinin apardığı dil siyasəti bu gün də uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamları da öz ictimai-tarixi əhəmiyyətinə görə yüksək əhəmiyyət daşıyır. Həmin sərəncamlara uyğun olaraq 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı hazırlanmış və çap olunmuşdur. Ölkə Prezidenti bu sərəncamlarla həm də milli-mənəvi dəyərlərimizə, elmin və mədəniyyətin inkişafına böyük diqqət yetirdiyini bir daha təsdiqləmişdir. Ölkə başçısının imzaladığı 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" növbəti Sərəncam isə ana dilimizə – Azərbaycan dilinə növbəti diqqət və qayğının təzahürüdür.

Milli dəyərlərin qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi cəmiyyətdə tutduğu mövqeyindən, peşəsindən, ixtisasından, vəzifəsindən asılı olmayaraq, hər kəsin vətəndaşlıq borcudur. Hər bir Azərbaycan vətəndaşı öz ana dilini qorumalı, onun mənəvi-siyasi nüfuzunu təkcə ölkə daxilində deyil, bütün dünyada yüksəltməyə çalışmalıdır. Ümummilli Liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Millətin milliliyini saxlayan onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi də bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də Azərbaycançılıq məsələsidir".***

**Qafar QƏNBƏROV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Biz öz torpaqlarımızın sahibiyik

***Biz öz yurdumuza qayıtdıq***

Hər dəfə xəbər saytlarında, televiziyalarda ilk xəbər olaraq Laçına Zəngilana, Şuşaya, Cəbrayıla, Xocalıya növbəti köç karvanı yola salındı xəbərini izləyir və uzun illər cəbhə bölgəsində birlikdə yaşadığım insanları xatırlayıram: onlar bir neçə dəfə o rayondan bu rayona, bu kənddən başqa kəndə köçmüşdülər. Müharibə başlayanda yaşadıqları kəndşəhərlər işğal edilən gün güllə yağışı altında yığmışdılar evəşyi. Birini götürüb beşini götürə bilməmişdilər zəhmətlə alıb yığdıqları əşyalarını. Kimi isə ancaq quru canını götürüb çıxa bilmişdi düşmənin yağış kimi yağan güllələrinin əlindən. Kimisi isə evinin qapısını bərk-bərk qıfıllayıb açarlarını özü ilə götürmüşdü. Bir gün qayıtmaq ümidi ilə. Qayıtdılar, çünki onlar öz ordusuna, Ali Baş Komandanına inanırdılar. Əmin idilər, sandıqda ən dəyərli əşya kimi saxladıqları açar bir gün gələcək öz evlərinin qapısında paslanan qıfılı açacaq. Elə də oldu. Azərbaycan Ordusu Zəfər yürüşünü Şuşada, Laçında tamamlayıb xalqına sonsuz sevinc yaşatdı. Bu gün Laçın Beynəlxalq Hava Limanına enən təyyarədə “Qarabağa xoş gəlmisiniz!” sözlərini eşitmək qədər qürurverici heç nə ola bilməz bizim üçün. Bəli, Laçına həyat qayıdıb, doğma insanların səsi, uşaqların gülüşü qayıdıb. Biz dövlət başçısının verdiyi hər vədə əməl etdiyimiz kimi, ***“Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə, Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik”*** sözlərinə də ürəkdən inanıb Laçına qayıtdıq.

***Laçın laçın çağlarına geri dönür***

Azərbaycan tarixində xüsusi yerə malik Laçın şəhəri işğaldan azad edildiyi gündən şəhərdə abadlıq-quruculuq işlərinə başlanıldı. Ölkə başçısı buraya etdiyi səfərlərdə laçınlılara tezliklə öz yurdlarına qayıdacağı müjdəsini verdi.



Bu gün Laçın, sözün əsl mənasında, laçın çağlarına geri dönür. Ərazidə aparılan geniş tikinti-bərpa işləri nəticəsində Laçın gündən-günə abadlaşır. Statistik məlumatlara görə, erməni işğalından öncə Laçın şəhərində inzibati binalardan başqa, 2020 fərdi ev, 28 ümumi yaşayış binası olub. Təəssüf ki, işğal zamanı erməni vandalizmi nəticəsində 1500-dən artıq ev tamamilə dağıdılıb, təbiət isə ekoloji terrora məruz qalıb, bir çox abidə məhv edilib. 44 günlük Zəfər yürüşündə Azərbaycan Ordusuna məğlub olan düşmənin əsl üzünü Laçına daxil olanda gördük. Şəhər dağıdılmış, tarixi abidələr yerləyeksan olmuşdu. Laçın əsl sahiblərinin nəzarətinə keçdikdən sonra isə artıq burada geniş tikinti-bərpa işlərinə başlanıldı. Laçın şəhərində doqquz içməli su anbarı, üç yağış sularının toplanması anbarı, bir çirkab sularının təmizlənmə qurğusunun tikintisi aparıldı. Həmçinin bərpası mümkün olan evlər əsaslı təmir olundu. Müasir memarlıq üslubuna uyğun olaraq xalq memarlığı da qorunmaqla müxtəlif dizaynlı dekorasiya işləri aparıldı. Evlərin əsaslı təmiri ilə yanaşı, həyətyanı sahələrin abadlığı, landşaft işləri paralel yerinə yetirildi. İşğal zamanı ekoloji terrora məruz qalan Laçın şəhərinin

## Prezident İlham ƏLİYEV:

***“Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.”***

yaşıllıq zolaqları da bərpa edildi. Şəhər ərazisində yeni parklar salındı, iqlimə uyğun yeni ağac və bitkilər əkildi. Həyətyanı sahələrdə damcı-suvarma sistemi quraşdırıldı. Yol infrastrukturu quruldu. İş yerlərinin yaradılması məqsədilə istehsal müəssisələrinin tikintisi, o cümlədən əhalinin məşğulluğu üçün müxtəlif müəssisələrin açılması istiqamətində işlər görülüb. Sürətlə həyata keçirilən işlər Laçının doğma sakinlərinə tezliklə yenidən qucaq açmasına imkan yaratdı. Bunu bütün xalq görür və hamılıqla sevinirik ki, laçınlılar daha yurd həsrəti çəkməyəcəklər. Vaxt gəlib çatdı, laçınlılar öz yurduna qayıtdı. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi yenidən quruldu. Biz yurdumuzu, bərpa etdik.

***MDB-nin mədəniyyət paytaxtı – Laçın***

Laçın təkcə öz sakinlərinə qucaq açmadı, o həm də 2025-ci il MDB-nin mədəniyyət paytaxtı elan edildi. Laçın şəhərinin 2025-ci il MDB-nin mədəniyyət paytaxtı elan edilməsi qürur doğuran növbəti məqamlardan biri oldu. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Laçın rayonunda Prezidentin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə iyunun 3-də Laçın şəhərində “MDB-nin mədəniyyət paytaxtı – 2025” ilinin rəsmi açılış mərasimi keçirilib. Bu tədbir təkcə Azərbaycan üçün deyil, bütün region üçün mühüm hadisə hesab olunur. Bu təşəbbüs mədəni əməkdaşlığın genişlənməsinə, həmçinin azad edilmiş ərazilərin dirçəlişinə töhfə verməklə yanaşı, Laçının zəngin mədəni irsinin dünyaya tanıdılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Həmin gün bir çox mədəniyyət xadimlərinin tədbirdə iştirak etməsi Laçının Azərbaycanın mədəniyyət mərkəzinə çevrilməsinin bariz nümunəsi kimi dəyərləndirilir.

***Laçın quşu qanad saxlar bu yerlərdə***

28 il Həkəri çayı lal axdı, xınalı qayalarının xınası soldu Laçının. Sarı Aşığın sazından qəm-qüssə sədaları gəldi. Ürəyi sazlı, sözlü laçınlılar dağlıq, meşəlik yerləri Laçına bənzətdi, ağı deyib ağladı. Amma heç bir dağ-dərə Laçının əvəzi ola bilmədi. Bir vaxtlar Rəşid Behbudovun səsindən can alan “Laçın” xalq mahnısı 28 il həsrət nəğməsinə çevrilmişdi. Bu mahnı hər dəfə səslənəndə bağrımız göynədi, gözlərimiz doldu. Laçınlı xanəndə Məhəbbət Kazımov isə ömrünün sonuna kimi ürəkağrısı ilə “Laçınım”, – dedi. Laçın işğaldan azad ediləndən sonra “Laçınım” mahnısının sədaları Laçın dağlarında əks-səda verəndə ürəyimiz o dağların buz bulaqları kimi sərinlədi. Həmin kadrları seyr edəndə illər öncə yaşadığım Goranboy rayonunun Ağcakənd qəsəbəsində məskunlaşan

*Laçın bir quş olaydı,*
*Uçub bağa qonaydı,*
*Son nəfəsim verəndə,*
*Mənə sirdaş olaydı.*

deyə-deyə dünyadan köçən laçınlı Alimə xalanı xatırladım. Öz-özümə dedim ki, daha bitdi bu həsrət, əbədiyyən bitdi. Bundan sonra Həkəri daha gur axacaq, yazı da, qışı da bizim olacaq Laçının. Bu gün təkcə laçınlılar deyil, bütün Azərbaycan daha həsrətlə yox, sevinclə “Laçınım”, – deyir. Laçın laçın vaxtlarına qayıdır.

**Ramiyə ƏKBƏROVA**



# Səlahiyyətli nümayəndə Babək rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb



İyulun 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Babək rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Ötən illər ərzində Babək rayonunun sakinləri ilə keçirilən görüşləri xatırladan səlahiyyətli nümayəndə bu görüşlərin nəticələrini yüksək qiymətləndirib. Bildirib ki, sakinləri narahat edən problemlər və irəli sürdükləri təkliflər əsasında qarşıda duran vəzifələr müəyyənləşdirilir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da bütün sahələrin inkişafı ilə bağlı görüləcək işlər müəyyənləşdirilib və icrasına başlanılıb.

Fuad Nəcəfli qeyd edib ki, Babək rayonunda torpaqların su təminatının yaxşılaşdırılması əsas prioritet hədəflərdəndir. Dövlət Proqramı çərçivəsində “Araz-1” və “Araz-2” ikipilləli nasos stansiyasının və təzyiqli qoşa boru xəttinin yenidən qurulması işlərinə başlanılıb. Həmçinin Əlincəçaydan su götürən və Culfa rayonunun ərazisindəki Bənəniyar su anbarını qidalandıran kanal da yenidən qurulacaq.

Görüşdə sakinlərin problem və təklifləri dinlənilib, mövcud çatışmazlıqlar müzakirə edilib.

# Ali Məclis sədrinin birinci müavini, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Bəxtiyar Məmmədov gənc şahmatçı Yasin Əzimovla görüşüb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Bəxtiyar Məmmədov gənc şahmatçı Yasin Əzimov, atası Şahin Əzimov və müəllimi Urfan Sevdimalıyev ilə görüşüb.

Görüş zamanı qazandığı nailiyyətlər münasibətilə gənc şahmatçını təbrik edən Bəxtiyar Məmmədov onun ölkəmizi beynəlxalq turnirlərdə uğurla təmsil etməsini yüksək qiymətləndirib. Bildirilib ki, Yasin Əzimovun uğurları təkcə zəhmətin deyil, eyni zamanda ailəsinin və onu yetişdirən müəllim-məşqçilərin birgə səylərinin nəticəsidir.





Vurğulanıb ki, Yasin Əzimov 11 yaşında FIDE-nin Candidate Master titulunu qazanaraq muxtar respublikada bu ada layiq görülən ən gənc şahmatçılardan biri olub. Onun hazırda FIDE reytinqi 2097-dir və mütəmadi olaraq beynəlxalq yarışlarda iştirak etməklə bu göstəricini yüksəltməkdədir. İstedadlı şahmatçı 2023-cü ildə Albaniyanın Durres şəhərində keçirilən məktəblilərin şahmat üzrə Avropa çempionatında 1-ci yerə layiq görülüb. Eyni zamanda Türkiyənin bir sıra şəhərlərində keçirilən beynəlxalq turnirlərdə də uğurlar qazanıb.

Görüşdə Yasin Əzimovun gələcək hədəfləri barədə də fikir mübadiləsi aparılıb. Gənc şahmatçıya qarşıdan gələn Malatya və Bitlis beynəlxalq turnirlərində uğurlar arzulanıb.

Sonda Yasin Əzimova Ali Məclis sədrinin birinci müavini, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Bəxtiyar Məmmədov tərəfindən hədiyyə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.*



İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, 2025-ci ilin ilk yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsi, hüquqi-maarifləndirmə işinin daha da gücləndirilməsi, vətəndaşların müraciətlərinə vaxtında baxılması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilib. Cari ilin ölkədə “Konstitusiya və Suverenlik İli” elan olunduğunu, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin fəaliyyətinin 100-cü ilinin bu ilə təsadüf etdiyini xatırladan Ali Məhkəmənin sədri qəbul olunmuş Tədbirlər Planına uyğun olaraq 2025-ci ilin ilk altı ayı ərzində keçirilmiş silsilə tədbirlər barədə məlumat verib və bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən hüquqi-maarifləndirmə sahəsində diqqətəlayiq işlər həyata keçirilib və keçirilməkdədir. Ali Məhkəmə tərəfindən müxtəlif səpkili elmi-praktiki konfranslar, muxtar respublika məhkəmələrinin sədr və hakimlərinin iştirakı ilə seminarlar keçirilib. Seminarlarda təcrübədə hakimlərin qarşılaşdığı problemlər, onların həll üsulları müzakirə edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin gündəliyinə salınmış məsələlərə baxılıb, 2025-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiyalarında baxılmış işlərə dair, həmçinin 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş müxtəlif kateqoriyalı işlər üzrə qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinin nəticələri barədə məlumat verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun həyata keçirməklə məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, vətəndaş məmnuniyyətinin təmini və onların hüquqlarının bərpasına, eyni zamanda ədalət mühakiməsinə əlçatanlığın təmini və məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətini davam etdirəcəkdir.

# “Qərbi Azərbaycan irsi” kitabının birinci cildinin yekun təqdimatı olub

Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası üzrə nümayəndəliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində “Qərbi Azərbaycan irsi” kitabının I cildinin yekun təqdimat mərasimi olub.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himni səsləndirilib.



Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası üzrə nümayəndəsi Elbrus İsayev bildirib ki, tarixən monoetnik dövlət yaratmağa cəhd edən ermənilərin xalqımıza qarşı törətdiyi soyqırımı və deportasiya siyasəti nəticəsində əzəli Azərbaycan torpaqlarından zorla qovulmuş qərbi azərbaycanlıların mövcud irsinin mərhələli şəkildə məhv edilməsi artıq iflasa uğrayıb. 2022-ci il dekabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya qəbul olunub, bu istiqamətdə konkret tədbirlərin icrasına başlanılıb.



Vurğulanıb ki, “Qərbi Azərbaycan irsi” kitabının nəşri də bu konsepsiyanın tərkib hissəsi olmaqla tariximizi faktlarla, sənədlərlə, mədəniyyət nümunələri ilə sübut edən fundamental tədqiqat əsəri kimi mühüm əhəmiyyətə malikdir. Beş hesabatdan ibarət olması nəzərdə tutulan kitabın I cildində 1991-ci ilə qədər Qərbi Azərbaycan ərazisində mövcud olmuş, hazırda isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilir. Kitabda, həmçinin hərbi-topoqrafik xəritələrdən, peyk təsvirlərindən istifadə edilib və müasir metodoloji təhlillərlə ərazidə mövcud olan qəbiristanlıqların monitorinqi aparılıb. Ən ciddi milli ideoloji istiqamətlərdən biri olan Qərbi Azərbaycan irsinin tədqiqat toplusu olan kitabın üç dildə nəşri isə onun beynəlxalq əhəmiyyətini daha da artırır.

Elbrus İsayev qeyd edib ki, 2023 və 2024-cü illərdə Naxçıvanda universitetin əsas təşkilatçılardan biri kimi iştirakı ilə “Qərbi Azərbaycana qayıdış” festival-konqresi keçirilib. Ali təhsil ocağının təşkilatçılığı ilə Qərbi Azərbaycana məxsus folklor nümunələri, kulinariya, musiqi və yallı nömrələri, sərgilər, ədəbi-bədii kompozisiyalar təqdim olunub. Festival-konqres çərçivəsində kitab təqdimatları olub ki, bu gün də ali təhsil ocağında mütəmadi keçirilən kitab təqdimatlarında “Qərbi Azərbaycana qayıdış” konsepsiyası diqqətdə saxlanılır. Eləcə də Naxçıvan Dövlət Universitetində Qərbi Azərbaycan məzmunlu seçmə fənlər tədris olunur ki, “Qərbi Azərbaycan irsi” kitabı həmin fənlərin tədrisində ciddi baza rolu oynayacaq.

Elbrus İsayev vurğulayıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində zəfər çalan, ərazi bütövlüyü və suverenliyi tam təmin edilən Azərbaycan xalqı birmənalı şəkildə inanır ki, qərbi azərbaycanlılar da sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz tarixi vətənlərinə qayıdacaqlar.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov nəşrin mahiyyəti və məqsədindən bəhs edib.

Qeyd olunub ki, Azərbaycan reallıqlarının gələcək nəsillərə ötürülməsində mühüm mənbə olan nəşr təkcə tariximizi işıqlandırmaqla kifayətlənmir, eləcə də beynəlxalq hüquqi məsuliyyətin əsaslarını ortaya qoyur. Nazir müavini əlavə edib ki, erməni separatçıları azərbaycanlılara qarşı törətdikləri vandalizm siyasətinin cavabını verəcəklər.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva qeyd edib ki, təqdimatı keçirilən kitab qərbi azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini, insan hüquqları prinsiplərinin, beynəlxalq hüquq normalarının və konvensiyaların ciddi və sistematik pozulmasını bir daha faktlarla sübut edir.

Bildirilib ki, geri qayıtmaq hüququnun təmin edilməsi ədaləti bərpa etmək, sülh və barışıq əldə etmək üçün beynəlxalq səylərin mərkəzində olmalıdır.

Günay Rzayeva bundan sonra da tarixi həqiqətlərin üzə çıxarılması və beynəlxalq ictimaiyyətə çatdırılması üçün birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov qeyd edib ki, Qərbi Azərbaycan irsinin yaşadılması və erməni cəlladlarının törətdiyi maddi və mənəvi ziyanın ödənilməsi tarixi zərurətdir. Bu nəşrlər təkcə tarixi ədalətin bərpasına deyil, həm də gələcək nəsillərin yaddaşında real faktlara söykənərək Qərbi Azərbaycanın zəngin irsini yaşatmağa xidmət edir və belə tədqiqat əsərləri beynəlxalq ictimaiyyətə geniş şəkildə təqdim olunmalıdır.

Sonra “Qərbi Azərbaycan irsi” silsilə nəşri ilə bağlı hazırlanmış videoçarx nümayiş olunub.

# Ümummilli Lider Heydər Əliyev Azərbaycan Konstitusiyasının müəllifidir

İyulun 29-da Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda Naxçıvan şəhər ziyalılarının da iştirakı ilə tədbir keçirilib.



Heydər Əliyev Muzeyində keçirilən tədbirdə iştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Giriş sözü ilə Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev çıxış edərək tədbirin əhəmiyyətindən danışıb və tədbir iştirakçılarına Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə ətraflı məlumatlar verib. Muzeyin direktoru qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev yeni dövrün çağırışlarına cavab verən, xalqın iradəsini əks etdirən, müasir, demokratik və milli dəyərlərə söykənən bir Konstitusiyanın hazırlanmasına şərait yaradıb.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova çıxış edərək bildirib ki, Konstitusiya təkcə hüquqi sənəd deyil, həm də bir ideya daşıyıcısıdır. O, xalqın necə yaşamaq istədiyini, hansı dəyərlərə inanıb onları qorumağa hazır olduğunu bəyan edən ideoloji və hüquqi manifestdir. Bu baxımdan Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş Konstitusiya müstəqillik ideyasını hüquqi statusa daşıdı, xalqın iradəsini dövlət sisteminə çevirdi və Azərbaycanın gələcək inkişaf xəritəsini müəyyən etdi.

Bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar – hüquq sisteminin modernləşdirilməsi, sosial rifahın yüksəldilməsi, rəqəmsal dövlət, iqtisadi islahatlar və beynəlxalq hüquqi münasibətlər – hamısı məhz 1995-ci il Konstitusiyasının hüquqi bazası üzərində inşa olunmuşdur.

Həmçinin Gülxanım Orucova vurğulayıb ki, Konstitusiyanın müəllifi Ümummilli Lider Heydər Əliyev deyirdi: ***"Biz elə bir dövlət qurmalıyıq ki, bu dövlətin əsasında qanunlar və ədalət dursun. İnsan özünü bu dövlətdə azad, təhlükəsiz və ləyaqətli hiss etsin".***

Bu sözlər bu gün də öz aktuallığını qoruyur və biz – Azərbaycan xalqı məhz belə bir dövlətin və Konstitusiyanın varisləri olmaqdan qürur duyuruq.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əziz Qasımov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin təkcə Azərbaycanın siyasi lideri deyil, onun hüquqi təməlini, dövlətçiliyin ideoloji dayaqlarını yaradan bir memar olduğunu qeyd edib. O, Azərbaycanın yalnız bu gününü deyil, gələcəyini də düşünərək bu gün Azərbaycan xalqının yaşadığı sabitliyin və inkişafın bünövrəsini qoyduğunu bildirib.

Tədbirin sonunda Heydər Əliyev Muzeyi ilə tanışlıq olub, burada Ümummilli Liderin həyatı və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərinə dair nümayiş olunan materialların, tarixi sənədlərin, nadir fotoların, Ulu Öndərə məxsus şəxsi əşyaların ziyarətçilər, tədqiqatçılar tərəfindən böyük maraqla qarşılandığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

# "Yarımçıq qalmış roman" adlı kitab nəşr olunub




Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yurdoğlunun "Yarımçıq qalmış roman" adlı kitabı nəşr olunub.

Nəşrdə 27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsində tarix yazan, Vətən uğrunda qəhrəmancasına canını fəda edib şəhidlik zirvəsinə ucalan Nicat Məmmədlidən bəhs olunur.

Şəhid Nicat Məmmədli Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canından keçmiş qəhrəman oğullarımızdan biridir. Onun qısa, lakin mənalı ömür yolu gələcək nəsillərə örnək olacaq qədər şərəfli və ilhamvericidir. Bu dəyərli xatirəni yaşatmaq və gələcək nəsillərə ötürmək məqsədilə Nicat Məmmədlinin ailəsi Elxan Yurdoğluna müraciət edərək şəhidin həyat yolunu əhatə edən bir kitabın hazırlanmasını xahiş edib.

Müəllif Nicat Məmmədlinin ailəsinin, doğmalarının, müəllimlərinin, dostlarının, sinif, kursant, tələbə və döyüş yoldaşlarının söylədikləri xatirələri dilimizdəki bədii sözün zəngin ifadə vasitələri ilə qələmə alıb və öz düşüncələrini də əlavə edib.

Nəşrdə şəhidin uşaq yaşlarından başlayaraq həyatının hər bir mərhələsinə aid fotoşəkillər, ona həsr edilən şeirlər, hətta onun iş dəftərinin hər bir səhifəsi yer alıb.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən 432 səhifəlik kitabın redaktoru "Şərq qapısı" qəzetinin şöbə müdiri Aidə İbrahimovadır.

Elxan Yurdoğlu tərəfindən qələmə alınan "Yarımçıq qalmış roman" kitabı geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Müəllif həm publisistik, həm də bədii ifadə vasitələrilə Nicat Məmmədlinin həyat fəlsəfəsini, vətən anlayışını və şəhidlik zirvəsinə yüksələn mənəvi dünyasını oxucuya çatdırıb. Kitab bir şəhidin həyatına işıq tutmaqla bərabər gənc və yeniyetmə nəslin vətənpərvərlik ruhunda tərbiyəsində böyük əhəmiyyətə malikdir.

Onu da qeyd edək ki, Nicat Məmmədli 31 iyul 1999-cu ildə anadan olub. Bu münasibətlə Nicat Məmmədlinin mövlud ildönümündə kitabın Culfa Rayon Mədəniyyət Sarayında təqdimatı keçirilib.

Təqdimat mərasimində Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin



deputatı Əjdər Əliyev, Culfa Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Ruslan Cəfərov, "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mayis Gülməmmədov, şəhid Mərhəmət Həmzəyevin anası, qazi Yelmar Dilavərli, Dövlət Gömrük komitəsinin əməkdaşı, şəhidin döyüş və kursant yoldaşları, həmçinin şəhid Nicatın valideynləri çıxış ediblər.

Tədbirin sonunda şəhid Nicat Məmmədliyə aid videoçarx və Culfa Rayon Mədəniyyət Şöbəsinin hazırladığı kompozisiya nümayiş etdirilib.

# Ordubad şəhərində yerləşən "Ərbabın iş yeri" və tarixi binanın bərpası ilə bağlı əsaslı təmir işlərinə başlanılır



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında öz əksini tapmış layihələr, habelə investisiya layihələri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra işlər həyata keçirilir.

Həyata keçirilən tədbirlərin davamı olaraq Ordubad şəhərində yerləşən "Ərbabın iş yeri" və ona bitişik tarixi binanın bərpası ilə bağlı müqavilə imzalanıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 2024-cü ildə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) çərçivəsində Ordubad şəhərində yerləşən "Ərbabın iş yeri" və ona bitişik tarixi binanın əvvəlki vəziyyətinə qaytarılması və əsaslı təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması məqsədilə satınalma elan olunmuş və layihə smeta sənədləri qanunauyğun olaraq ekspertizadan keçirilmişdir. Təsdiq edilmiş layihəyə uyğun olaraq nazirlik tərəfindən keçirilən satınalma yekunlaşaraq qalib şirkətlə müqavilə imzalanıb.

Qeyd edək ki, "Ərbabın iş yeri" və ona bitişik tarixi binanın bərpası üçün cari ilin aprel ayında satınalma elan olunmuşdur.

Məlumat üçün qeyd edək ki, yaxın zamanlarda başlanılacaq bərpa işlərinin iki il müddətinə tamamlanması nəzərdə tutulur.

# Naxçıvan – dünyanın ən dayanıqlı yerlərindən biri




*Beynəlxalq onlayn media platforması olan www.eureporter.co saytında "Nakhchivan: one of the world's most sustainable places" (Naxçıvan: dünyanın ən dayanıqlı yerlərindən biri) adlı geniş məqalə dərc olunub. Məqalədə Azərbaycanın muxtar respublikası olan Naxçıvanın həm tarixi, həm də ekoloji baxımdan diqqətçəkən xüsusiyyətlərinə geniş yer ayrılıb.*

Məqalədə vurğulanır ki, çoxzolaqlı və müasir yolları ilə seçilən Naxçıvan şəhəri səyahətçilər üçün olduqca cəlbedici məkandır. Macəra axtaran turistlər bu şəhəri tərk edərkən xoş təəssüratlarla ayrılır, yerli sakinlərin qonaqpərvər və səmimi münasibəti isə xüsusi qeyd olunur.

Şəhərdə fəaliyyət göstərən çoxsaylı muzeylərin, deməkolar ki, hamısına girişin pulsuz olması da müəllif tərəfindən təqdirəlayiq hal kimi təqdim olunur. Bu muzeylər arasında Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş Heydər Əliyev Muzeyi xüsusi yer tutur. Muzeydə 5000-dən çox eksponat nümayiş etdirilir və bu eksponatlar vasitəsilə Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında ziyarətçilərə ətraflı məlumat verilir.

Məqalədə, həmçinin Naxçıvan memarlıq məktəbinin banisi, məşhur memar Əcəmi Naxçıvaninin əsərləri, o cümlədən Möminə xatun türbəsi və Yusif Küseyir oğlu türbəsi haqqında geniş məlumat yer alıb. Qeyd edilir ki, bu türbələr Şərq memarlığının inciləri olmaqla yanaşı, Azərbaycanın milli irsinin parlaq nümunələridir.

Naxçıvanın 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan edildiyi xatırladılır və şəhərdə yerləşən, 6500 nəfərlik tutuma malik Heydər məscidi də bu mədəniyyətin təcəssümü kimi təqdim olunur.

Məqalədə qədim yaşayış məskəni olan Ordubad rayonundakı muzeylər, eləcə də təbii gözəllikləri ilə seçilən Göygöl haqqında da məlumat verilir. Qeyd olunur ki, Göygöl son zamanlar UNESCO-nun Dünya İrsinin İlkin Siyahısına daxil edilib. Gölə aparan dağ yolları səyahətsevərlər üçün əsl macəra vəd edir.

Təbiət möcüzələri ilə zəngin olan bölgədə Batabat gölü, onun "üzən ada" fenomeni, eləcə də 250-dən çox mineral su mənbəyi – xüsusilə "Sirab" və "Badamlı" suları haqqında məlumatlar da oxucularla paylaşılır.

Naxçıvanda yerləşən və müalicəvi xüsusiyyətləri ilə tanınan "Duzdağ" mağarası da məqalədə xüsusi vurğulanır. Bildirilir ki, burada bronxial-astma və xroniki bronxit kimi xəstəliklərin müalicəsi üçün şərait yaradılıb və sağlam insanlar belə bu mağaraya maraq göstərirlər.

Bölgənin təhsil potensialı da diqqətdən kənarda qalmayıb. Məqalədə qeyd olunur ki, Naxçıvan Dövlət Universitetində İran, Türkiyə, Banqladeş və Nigeriyadan olan çoxsaylı əcnəbi tələbələr təhsil alır.

Naxçıvanın yerli mətbəxi və kulinariya ənənələri də oxucuların diqqətinə çatdırılıb. Xüsusilə "Qayğanaq" adlı şirniyyat və cəviz, şəkər tozu ilə doldurulmuş qurudulmuş ərikdən hazırlanan "Alana" xüsusi dad olaraq qeyd olunub.

Tarixi məkanlar arasında Culfa rayonunda yerləşən və Naxçıvanın "Machu Picchu"su adlandırılan Əlincə qalası da diqqət çəkir. Yerli əfsanələrdən biri isə Nuhun gəmisinin İlandağ zirvəsinə endiyi barədədir – dağın zirvəsindəki parçalanmanın gəminin izi olduğuna inanılır.

Sonda müəllif qeyd edir ki, Naxçıvan həm qədim mədəniyyət mərkəzi, həm də Azərbaycanın və bəlkə də, Qafqazın ən təmiz şəhərlərindən biridir. Məqalədə Naxçıvanın təbiətinin, mədəniyyətinin və insanların səmimiyyətinin bu bölgəni dünyanın kəşf edilməyə layiq ən unikal yerlərindən birinə çevirdiyi vurğulanır.

# Enactus komandası milli Enactus yarışına hazırlaşır

***Naxçıvan Dövlət Universitetinin Enactus komandası milli çempionata hazırlıqlarını yekunlaşdırır. “Şərq qapısı” qəzetinin çəkiliş komandası da Enactus qrupunun fəaliyyətini izləmək məqsədilə universitetin ərazisində yerləşən İnnovasiya Mərkəzində gənclərin layihə üzərində iş prosesi ilə tanış olub.***






Komanda üzvləri müxtəlif sosial və innovativ layihələr üzərində çalışaraq müsabiqədə uğur qazanmağa iddialıdırlar.

Layihələrin hazırlanma mərhələsində komanda məqsədyönlü və sistemli şəkildə fəaliyyət göstərir.

Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Respublikasının İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi Enactus komandasına yaxından dəstək göstərir. Komanda ilə agentlik arasında sıx tərəfdaşlıq mövcuddur və iştirakçılar bütün mərhələlərdə zəruri dəstəklə təmin olunur.

Avqust ayında paytaxt Bakı şəhərində keçiriləcək milli Enactus çempionatında iştirak edəcək olan universitet komandası yer tutduğu təqdirdə Taylandda keçiriləcək qlobal Enactus çempionatına iştirak vəsiqəsi qazanacaq.

# Naxçıvan Dövlət Universitetinin məzunu beynəlxalq təhsil arenasında uğur qazanıb




Ölkəmizin ali təhsil müəssisələri sırasında ön yerdə gedən Naxçıvan Dövlət Universiteti şad xəbər alıb. Belə ki, universitetin Beynəlxalq münasibətlər ixtisasının məzunu Aysu Adıgözəllinin Macarıstan Hökumətlərarası Təqaüd Proqramının (HTP) qalibi olması, təbii ki, həm də ali təhsil müəssisəsinin uğurudur. Biz də Aysu xanımla redaksiyamızda görüşüb təəssüratlarını öyrəndik. O bildirdi: “Macarıstan Hökuməti ilə Azərbaycan Respublikası arasında imzalanmış ikitərəfli saziş çərçivəsində nüfuzlu Avropa universitetlərində təhsil almaq hüququ qazanaraq bundan sonra həm ölkəmizi, həm də Naxçıvan Dövlət Universitetini beynəlxalq arenada layiqincə təmsil edəcəyəm. Gənc nəsil üçün bir nümunə olaraq məqsədim təkcə yeni biliklər qazanmaq deyil, həm də əldə etdiyim bilik və təcrübəni ölkəmin inkişafına yönəltməkdir. Hələ üçüncü kursda təhsil alarkən xaricdə təhsil almaq niyyətimi formalaşdırmış və bu məqsədlə ilk addım olaraq IELTS imtahanına hazırlaşmışdım. İmtahan nəticəm 7 bal olmuşdu. Daha sonra isə qəbul prosesi başladı və bu mərhələdə müsahibələr əsas rol oynadı. İlk müsahibə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən keçirildi və nəticədə, əsas siyahıya daxil edildim. Növbəti mərhələdə Macarıstan universitetləri ilə keçirilən müsahibələrdən də müsbət nəticə əldə etdim və birinci seçimim olan ELTE Universitetindən qəbul aldım. Magistratura təhsilimi Hökumətlərarası Təqaüd Proqramı (HTP) çərçivəsində davam etdirəcəyəm. Bu proqram təhsil haqqını tam qarşılayır və aylıq yaşayış xərclərinə dəstək göstərir. Bu uğuruma görə ailəmə və xüsusilə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimlərinə dərin minnətdarlığımı bildirirəm. Müəllimlərim bu müddət ərzində həm akademik biliklərlə, həm də mənəvi dəstəkləri ilə daim yanımda olublar. Təhsilimi başa vurduqdan sonra isə öz ölkəmə töhfə vermək və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində fəaliyyətimi davam etdirmək istəyirəm”.

Naxçıvan Dövlət Universitetinin məzunu Aysu Adıgözəllinin bu uğuru bir daha sübut edir ki, müasir gənclik istedadı, biliyi və əzmi ilə gələcək nəsillərin elm və təhsilə marağını artırmaqla yanaşı, ölkəmizin beynəlxalq nüfuzunu da yüksəldir.



# Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən mediatur təşkil olunub



İyulun 26-da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən milli mətbuatın yaradılmasının 150 illik yubileyi münasibətilə mediatur təşkil olunub.

Tur çərçivəsində 38 nəfər media nümayəndəsi Ağbulaq İstirahət Mərkəzində ikigünlük yay istirahətinə qatılıb.

İstirahət proqramı çərçivəsində media işçiləri üçün müxtəlif əyləncəli və intellektual tədbirlər keçirilib. Canlı musiqi proqramları, intellektual bilik yarışları, şahmat və stolüstü tennis turnirləri, eləcə də cizgi film personajlarının iştirakı ilə təşkil olunan oyunlar iştirakçılarda maraq və yüksək əhval-ruhiyyə yaradıb.

Qeyd edək ki, bu cür təşəbbüslər media nümayəndələrinin asudə vaxtının səmərəli keçirilməsi, sosial fəaliyyətlərinin artırılması və peşəkar inkişaflarına dəstək verilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

# Gənclər beynəlxalq düşərgədə iştirak ediblər

Quba şəhərində Azərbaycan-Gürcüstan “Gənclər həftəsi” çərçivəsində Azərbaycan-Gürcüstan gənclərinin II beynəlxalq düşərgəsi təşkil olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə düşərgədə Naxçıvandan iki gəncin – Nihad Abbasov və Gülçin Qənbərovanın iştirakı təmin edilib.

İki ölkə gəncləri arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edən düşərgənin proqramına komanda quruculuğu və kulinariya üzrə praktiki sessiyalar, “Gənclər və startaplar: ideyadan təsirə” və “Sosial medianın gənclərə təsiri” mövzularında müzakirələr, interaktiv oyunlar, Quba şəhərinə mədəni tur, milli musiqi və rəqs təqdimatları daxil olub.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov və Gürcüstanın təhsil, elm və gənclər naziri Givi Mikanadze düşərgədə iştirak edən gənclərlə görüşərək onların suallarını cavablandırıb, əməkdaşlıq imkanları müzakirə olunub.



# Şərurda keçirilən “Yay düşərgəsi” başa çatıb



“Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Gənclərin yay düşərgəsi – 2025” 24-26 iyul tarixləri ərzində keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə reallaşan düşərgədə 50-yə yaxın könüllü gəncin iştirakı təmin olunub.

Şərur Olimpiya İdman Kompleksində təşkil olunan düşərgənin sonuncu günündə komanda təqdimatları izlənilib, yarışmaların qalibləri və fəal iştirakçılar diplomla təltif ediliblər.

# Naxçıvanın 4 qızıl məzunu




Ümumi təhsil müəssisələrinin 2024-2025-ci tədris ili üzrə məzunlarının qızıl və gümüş nişanla təltif edilməsi ilə bağlı Azərbaycan Respublikasının Elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb. Əmrə uyğun olaraq Naxçıvan Muxtar Respublikası üzrə 4 məzun qızıl nişana layiq görülüb. Onlar Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin məzunu Oruc Heydərov, Şahbuz rayon Badamlı qəsəbə tam orta məktəbinin məzunu Səma İsmayılova, eləcə də Naxçıvan Qarnizonu tam orta məktəbinin məzunları Fidan Ağazadə və Fidan Bədəlovadır. Uğur qazanan məzunlar redaksiyamızın qonağı oldu.

“Uğur yalnız öz zəhmətinlə qazanılır”, – deyir Oruc Heydərov. O, 2025-ci ildə keçirilən Respublika Fənn Olimpiadasında riyaziyyat fənni üzrə üç mərhələdə uğurla çıxış edərək 3-cü yerə layiq görülüb və bürünc medal qazanıb. Bu nəticə ona qızıl nişan qazandırıb. Oruc olimpiadaya əsasən müstəqil hazırlaşıb, müxtəlif riyazi vəsaitlər üzərində işləyərək biliklərini artırıb. Yalnız imtahan öncəsi bir ay Təhsil Nazirliyinin təşkil etdiyi xüsusi hazırlıq kursunda iştirak edib. Həmin kurs biliklərini sistemləşdirməyə və imtahana daha yaxşı hazırlaşmasına kömək edib. Buraxılış imtahanında Oruc 281,2 bal, blok imtahanında isə 384,5 bal toplayaraq, ümumilikdə, 665,7 bal nəticə göstərib. O, Respublika Fənn Olimpiadasındakı nəticələrinə əsaslanaraq ADA Universitetinə qəbul olmağı düşünür. Gələcək planı proqramlaşdırma, süni intellekt və informasiya texnologiyaları sahəsində ixtisaslaşmaqdır. O arzulayır ki, əldə etdiyi biliklərlə ölkəsinin texnoloji inkişafına töhfə versin. Oruc Heydərov həmyaşıdlarına tövsiyə edir ki, daim öz üzərlərində çalışsınlar, qarşılarına hədəf qoysunlar və həmin məqsəd istiqamətində ardıcıl irəliləsinlər. Uğur yalnız kurslarla yox, həm də zəhmətlə qazanılır. Hər çətinliyin arxasında bir fürsət gizlənir, sadəcə, onu görmək və dəyərləndirmək lazımdır.

Naxçıvan Qarnizonu tam orta məktəbinin məzunu Fidan Bədəlova isə uğurlarını təkcə fərdi deyil, kollektiv əmək nəticəsi kimi qiymətləndirir: “Bu uğurlarımı məktəb rəhbərliyinə, fədakar müəllimlərimə və hər zaman yanımda olan valideynlərimə borcluyam. Onların dəstəyi olmasaydı, bu nəticələri əldə etmək çətin olardı”. Fidanın uğurları çoxdur. 2023-cü ildə Naxçıvan Muxtar Respublikası fənn olimpiadasında Azərbaycan dili fənni üzrə II yerə layiq görülüb, 2024-cü ildə isə ölkə üzrə keçirilən fənn olimpiadasında I yeri qazanaraq qızıl medal əldə edib. Bu uğurlar ona gələcək təhsilində də üstünlük verir. Fidan deyir ki, bu nailiyyətlər sistemli hazırlıq və məktəbdə yaradılan əlverişli mühitin nəticəsidir. Məktəbdə mütəmadi sınaq imtahanları keçirilirdi. Bu imtahanlar zəif tərəflərimizi müəyyənləşdirməyə və əlavə məşğələlərlə onları aradan qaldırmağa imkan verirdi. Bu sistemli yanaşma uğurumuzun əsas səbəbidir.

Qeyd edək ki, Fidan qəbul imtahanında 495,4 bal toplayıb, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil almağı planlaşdırır.

Digər qızıl nişanlı məzun, Naxçıvan Qarnizonu tam orta məktəbinin məzunu Fidan Ağazadə isə həkim olmaq arzusundadır: “Təhsilimin bu vacib mərhələsini uğurla başa vurmağım həm böyük sevinc, həm də məsuliyyətdir. Dövlət İmtahan Mərkəzinin attestat imtahanında 295 bal, blok imtahanında isə 339,7 bal toplayaraq, ümumilikdə, 634,7 bal nəticə əldə etmişəm. Bu, illərlə davam edən zəhmətin, fədakarlığın və dəstəyin nəticəsidir”.

Fidan qeyd edir ki, məqsədi savadlı və vicdanlı həkim olmaqdır və Azərbaycan Tibb Universitetinə qəbul olunmağı planlaşdırır. O, təhsil aldığı məktəbin direktoru Natiq Əhmədova və müəllimlərinə minnətdarlığını bildirib. Fidan bu uğuru yalnız başlanğıc hesab edir və qarşıdakı məqsədlər üçün daha çox çalışacağını vurğulayır. O həm də şagird kimi bir çox olimpiadalarda uğur qazanıb.

Şahbuz rayonunun Badamlı qəsəbə tam orta məktəbinin məzunu Səma İsmayılova 9 mart 2025-ci il tarixdə keçirilən buraxılış imtahanında 300 bal toplayaraq muxtar respublika birincisi olub. Bu onun üçün qürurverici an olub. Səma, həmçinin Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş təqdimat müsabiqəsində III yerə layiq görülüb. Bu nailiyyətlər Səmanın qızıl nişana layiq görülməsinə əsas səbəb olub. O, ali məktəbə qəbul imtahanlarının I mərhələsində 356,9 bal, ümumi nəticədə isə 656,9 bal toplayıb. Daha sonra II cəhdlə 369,7 bal toplayaraq ümumi balını 669,7-yə çatdırıb. Səma İsmayılova bu uğurunu valideynləri və müəllimləri ilə bölüşdüyünü, onların dəstəyini xüsusi vurğulayıb. Müsahibimiz deyir ki, yüksək nəticə yalnız zəhmət deyil, həm də özünə inam, iradə və məqsədə qətiyyətli addımlarla mümkündür. O, abituriyentlərə daim özlərinə inanmalarını tövsiyə edir.

Bu nailiyyətlər göstərir ki, gənclərimiz gələcəyə inamla, öz gücünə arxalanaraq addımlayır. Qızıl nişan həm bu günün, həm də gələcəyin uğur müjdəsidir.

Bütün məzunlarımıza yeni həyatlarında uğurlar, daim yüksəkliklər arzulayırıq!

✍ **Bülbül RÖVŞƏNQIZI**

# O dövrdən bu dövrə kino...

***Hər ilin 2 avqustunda biz "Azərbaycan kino günü"nü qeyd edirik. Bu tarix, sadəcə, kinonun tarixi deyil, həm də yaddaşın təqvimdəki ən parlaq səhifələrindən biridir. Amma etiraf edək ki, müzakirələrdə həmişə eyni sual səslənir: niyə Azərbaycan klassik filmləri hələ də daha çox sevilir, nə üçün yeni ekran əsərləri eyni sevgini qazana bilmir? İşin sirri, bəlkə də, o vaxtın cəmiyyət problemlərində, ya da o dövrün aktyorlarında idi...***



Hələ də "Arşın mal alan" deyəndə qulağımızda Üzeyir bəyin musiqisi səslənir, "Bəyin oğurlanması" deyəndə isə hamımızın ağlına kənd həyatındakı toydan bir səhnə gəlir. Çünki həmin filmləri izləyəndə onlar yalnız bir hekayə danışmır, bizim həyatımızın bir parçası olur... O dövrün rejissorları tamaşaçını güldürəndə də, ağladanda da "öz evindən danışırmış kimi" danışırdılar. Sadə dialoqların içində xalqın ləhcəsi, söz oyunları, hətta məişət yumoru vardı.

İndiki filmlər isə texniki cəhətdən daha rəngarəng, daha müasir görünür. Amma çox vaxt tamaşaçı salondan çıxanda içində bir sual qalır: "Bu film mənim həyatıma nə qatdı?"

Bəlkə də, klassik filmlər "obraz yaratmaq"la məşğul olur, yeni filmlər də çox vaxt "qəhrəmanı təqdim etmək"lə kifayətlənir. O vaxtın ekran əsərləri uzun illər işlənmiş dialoqların, sınaqlardan keçmiş hekayələrin məhsuludursa, indi isə tez-tez "nəyəsə xatir çəkilən" filmlərlə qarşılaşırıq.

Bir anlıq gözlərimizi yumub "O olmasın, bu olsun" filmindəki qonaqlıq səhnəsini təsəvvür edək... Danışılan yumorlar, Qoçu Əsgərin əhvalatı, stol üstündəki qab-qabacağın, qonaqların gülüş səsi və ən əsası Məşədi İbadın içki məclisindən kənarda əyləşib sakitcə çayını içməyi… Biz o filmlərə baxanda sanki kəndin tozlu yolunu keçib bir anlıq o günlərə qayıdırıq.

Azərbaycan filmləri çox rəngarəngdir... Onlardan söz açarkən gah Qərib kimi cinlər diyarına səyahət edir, gah da "Bəxt üzüyü"nün Moşusu olub "xoşbaxtlığa" qafiyə axtarırıq...

Filmlərdən söz düşmüşkən cizgi filmlərdən bəhs etməmək olmaz. Abdulla Şaiqin nağılı əsasında çəkilən həmin o cizgi filmi... "Tıq-tıq xanım" cizgi filminin çəkilişlərindən danışan işçi heyəti o dövrdə hər çəkilişin dəqiqəsini Rusiyada yerləşən nümayəndəliyə göndərdiklərini deyirdilər. Fikirlər dərin, aktyorlar istedadlı, senzura isə çox. Bir cizgi filminin çəkilişi üçün belə. İndi isə senzura yoxdur... Bəlkə də, tək dəyişən ünsür bu deyil... Hər kəs öz işi ilə məşğul olduqda hər iş daha yaxşı nəticələnir. O dövrdə də aktyor obraza can verir, rejissor çəkilişi yönləndirir, musiqiçilər və bəstəkarlar isə öz işlərini görürdülər. İndi isə bir neçə işi bir insan görür. Görünür kinematoqrafiya sahəsi ya çox istedadlıdır, ya da savadlı kadr azlıq təşkil edir. Rejissor, aktyor, səs rejissoru, hətta bəzən "operator" çox vaxt eyni sima olur.. Qəribədir...

Yeni filmlərdəki şəhər mənzərələri, müasir mənzillər, dekorasiya elementləri çoxaldıqca tamaşaçı ilə filmin arasına "soyuq bir şüşə" girir. Amma buna baxmayaraq, Azərbaycan kinematoqrafiya sahəsində öz səsini çatdıran çox yaxşı işlər də var...

Deməli, bir məfhum hələ də öz ideallığını qoruyur, Azərbaycan kinosu hələ də yaddaşın ən dərin yerində yaşayır.

Bəlkə də, bəzi insanlar üçün bugünkü rejissorlar klassiklər kimi işlər ərsəyə gətirə bilmirlər, amma onların bizə buraxıb getdiyi mirası layiqincə qoruyurlar. Bir tərəfdə texniki mükəmməllik, bir yanda isə xalqın nəfəsi...

Unutmayaq, Azərbaycan kino günü yalnız keçmişin bayramı deyil, günümüzün və gələcək filmlərin də öhdəliyidir.

**Rafiq TƏHMƏZ**





# Əlifbamız necə dəyişdirildi?



***Çox qədim dövrlərdən bəri göytürk və uyğur əlifbalarından istifadə edən türklərin V əsrdən başlayaraq bu əlifbalarla yaratdığı Orxon-Yenisey abidələri dünya mədəni irsinin ən mükəmməl nümunələrindən hesab olunur. Lakin qədim yazılı abidələrimizdə işlənən ortaq türk əlifbası sonradan işləklikdən qalmış, türk xalqlarının hər biri yeni yazı sisteminə keçmişlər. Qaynaqlara əsasən hələ eradan əvvəl IV – bizim eranın III əsrlərində Azərbaycan ərazisində mövcud olmuş qədim Albaniyanın türkdilli əhalisinin 52 hərfdən ibarət öz əlifbası var idi. Alban tarixçisi Moisey Kalankatuklu özünün "Alban tarixi" əsərində yazısı olan xalqlardan danışarkən albanların da adını çəkərək alban əlifbasının təkmilləşdirilməsi üçün görülən işlərdən bəhs edir.***

**Nuray ƏLİYEVA**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, filologiya elmləri doktoru*

İslam dininin bölgədə yayılmasından sonra dini amillərin də təsiri ilə Azərbaycanda uzun əsrlərboyu ərəb əlifbası istifadə olunmuş, bu əlifba ilə Qətran Təbrizi, Xaqani Şirvanı, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Qazi Bürhanəddin, Şah İsmayıl Xətai, Molla Vəli Vidadi, Molla Pənah Vaqif kimi görkəmli şairlərimiz böyük bir irs yaratmışlar. Lakin ərəb dili və onun əlifbası Azərbaycan dilinin quruluşuna uyğun olmadığı üçün ondan istifadədə bir çox çətinliklər meydana çıxırdı. Məlumdur ki, ərəb dili sami dillər qrupuna daxildir. Bu dillərdə isə sait səslər çox zəif inkişaf etmişdir və onları ifadə etmək üçün əlifbada xüsusi işarələr yoxdur. Yazıda saitlər yazılmır, ancaq sözün üzərində qoyulan müxtəlif işarələrlə göstərilir. Azərbaycan dilində isə saitlərin çox güclü mövqeyi var. Həmçinin ərəb əlifbasında hərflərin çoxlu yazılış formalarının olması, sözlərin sağdan sola yazılması da dilimiz üçün uyğun deyildi. Ona görə də ərəb əlifbasından istifadə yazı prosesində çox ciddi çətinliklər törədirdi. Məhz bu səbəbdən XIX əsrdə Azərbaycanın bir sıra mütəfəkkirləri ərəb əlifbasına qarşı çıxış edirdilər və onun dilimizin yazı tələblərinə cavab vermədiyi fikrini irəli sürürdülər. Bu problemləri aradan qaldırmaq üçün onlar həm də müxtəlif əlifba layihələri hazırlamağa cəhd göstərirdilər. Bu sahədə ən çox çalışanlardan biri görkəmli mütəfəkkir Mirzə Fətəli Axundzadə idi. O, bir neçə əlifba layihəsi hazırlamışdı.

O da vurğulanmalıdır ki, əlifba islahatı məsələsi XIX əsrin sonu XX əsrin əvvəllərində bir çox ziyalılarımızı narahat edirdi. Məhəmməd ağa Şahtaxtlı, Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə, Əhməd bəy Ağaoğlu, Nəriman Nərimanov kimi mütəfəkkirlər öz tənqidi yazılarında tez-tez bu məsələyə toxunur, ərəb əlifbasının çətinliyini, onun xalqın inkişafına mane olmasını dönə-dönə qeyd edirdilər. Onların maarifçilik görüşlərinin əsasında xalqın savadlanması, oyanışı üçün əlifba problemi dayanırdı. Onların fikrincə, yeni əlifba, təkmilləşdirilmiş milli yazı sistemi cəmiyyətin inkişafında ən vacib amildir.

Azərbaycan dilinin inkişafının dönüş nöqtəsi sayılan 1918-1920-ci illərdə, yəni Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaranması və yaranan kimi də dilimizin inkişafı uğrunda fəaliyyətə başladığı dövrdə də əlifba məsələsi diqqətdən kənarda qalmamışdır. Onu da qeyd etmək lazımdır ki, əlifba islahatının gündəmə gəldiyi ilk dövrlərdən ziyalılar məsələyə iki müxtəlif qütbdən yanaşmışlar. Onların bir qismi "İslahatçılar" adlandırılırdı və ərəb əlifbasının tərəfdarı kimi çıxış edərək yaşanan çətinlikləri aradan qaldırmaq üçün bu əlifbada islahatlar aparmağı daha məqsədəuyğun hesab edirdilər. Onların fikrincə, ərəb əlifbasından imtina etməklə biz qədim ədəbiyyatımız, mədəniyyətimiz, Türk dünyası və İslam birliyindən ayrı düşmüş olacağıq. İkinci qütbün tərəfdarları isə "Latınçılar" adlanırdılar və onlar, ümumiyyətlə, ərəb əlifbasından imtina etməyi təklif edirdilər. Bu məqamda xüsusi qeyd etmək lazımdır ki, hətta müasir dövrümüzdə də bununla bağlı fikirlərdə haçalanmalar mövcuddur və bəzi tədqiqatçılar bunu sovet ideologiyasına xidmət edən bir addım olaraq xalqı öz tarixindən ayırmaq kimi qiymətləndirirlər. Çünki Azərbaycanda ərəb əlifbasından imtina və latın qrafikalı yeni əlifbaya keçid məhz sovet dövrünə təsadüf edir.

Belə ki, 1922-ci ildə latın qrafikalı yeni əlifba layihəsi hazırlanmış və müəyyən bir tarixi dövr ərzində bu əlifba ərəb əlifbası ilə paralel şəkildə istifadə olunmuşdur. Bu tarixi prosesdə 1926-cı ildə Azərbaycanda keçirilən Birinci Türkoloji Qurultayın da rolunu xüsusi qeyd etmək lazımdır. Türk xalqlarının mədəni-elmi həyatında çox mühüm rol oynayan bu yığıncaqda əlifba məsələsi də öz əksini tapmış və burada latın qrafikalı yeni əlifbaya keçidin əsas prinsipləri işlənib hazırlanmışdı. Qurultay iştirakçıları arasında da latın qrafikalı əlifba layihəsi birmənalı qarşılanmamış və onların bir qismi bunun əleyhinə çıxış edərək ərəb əlifbasının saxlanması təklifini irəli sürürdülər. Məsələn, qurultaydakı çıxışında Bəkir Çobanzadə deyirdi: "Asiya tarixinin ən mühüm, ən uca dövrləri, monqollar, hunlar, teymurilər dövrü, ya islamın yayılma dövrü bu əlifba ilə yazılmışdı. Gələcək türk nəsilləri öz babalarının bu şanlı tarixini oxuya bilməyəcək, kimin övladları olduqlarından xəbərsiz qalacaq və tarixin 1920-ci illərdən başlandığını sanacaqlar". Lakin qurultay iştirakçıları səs çoxluğu ilə yeni əlifba layihəsinə səs verdi. 1928-ci ilin oktyabr ayında ölkədə latın qrafikalı yeni əlifbaya keçidlə bağlı qərar qəbul edildi və 1929-cu ilin yanvarından yeni əlifbanın tətbiqinə başlandı.

Bəs nə üçün ilk vaxtlarda Rusiya öz işğalçılıq planlarını həyata keçirdiyi və zorla sovet bayrağı altında birləşdirdiyi xalqları özünün kiril əlifbasından istifadəyə məcbur etmədi və məhz latın qrafikalı əlifbaya üstünlük verdi? Əlifba məsələsi ilə məşğul olan tədqiqatçıların gəldiyi ümumi nəticə bundan ibarətdir ki, Rusiya onsuz da müstəqilliyini əlindən aldığı və zorla özündən asılı hala saldığı bu xalqlar arasında narazılıqların artacağından ehtiyat edərək belə bir addım atmışdı. Özünün ruslaşdırma siyasətini birdən-birə həyata keçirməyə cəsarət edə bilməmişdi. Qeyd edək ki, elə qardaş Türkiyə Respublikasında da 1928-ci ildən latın hərflərinə əsaslanan yeni türk əlifbasına keçid baş vermişdir.

1933-cü ildə latın qrafikalı Azərbaycan əlifbasına bəzi dəyişikliklər edildi. Burada hərflərin sayı əvvəlki əlifbadakı kimi 33 idi və həmçinin apostrof işarəsi də öz əksini tapmışdı. Beləliklə, Azərbaycanda 1929-cu ildə qəbul olunmuş latın qrafikalı yeni əlifba 1939-cu ilə qədər istifadə edildi. 1939-cu ildə Azərbaycanda kiril əlifbası əsasında hazırlanmış yeni əlifbaya keçidlə bağlı qərar qəbul edildi və 1940-cı il yanvarın 1-dən yeni əlifba tətbiq olunmağa başladı.

Ölkədə kiril əlifbasına keçid rus dilinin bütün SSRİ xalqları üçün vahid, ortaq dil kimi möhkəmlənməsinə xidmət edirdi. Belə vəziyyətdə xalqların müxtəlif əlifbalardan istifadəsi məqsədəuyğun deyildi və mərkəzləşmiş hakimiyyətin tələblərinə uyğun olaraq, həmçinin rus dilinin bütün sahələrdə tətbiqini genişləndirmək, asanlaşdırmaq, onun yayılmasına şərait yaratmaq məqsədilə bütün ölkədə vahid əlifbanın tətbiqi daha səmərəli idi. 1939-cu ildə təsdiq olunmuş kiril qrafikalı Azərbaycan əlifbası 40 hərf və apostrofdan ibarət idi. Buraya Azərbaycan dili üçün xarakterik olmayan rus dilindən keçən bəzi sözlərin tərkibində işlənən rus əlifbasındakı Ёё, Йй, Цц, Щщ, Ъъ, Ьь, Ээ, Юю, Яя hərfləri də əlavə edilmişdi. Lakin sonrakı illərdə əlifba üzərində bəzi təkmilləşdirmələr aparılaraq 1947-ci ildə Цц hərfi, 1958-ci ildə isə Ёё, Щщ, Ъъ, Ьь, Ээ, Юю, Яя hərfləri əlifbadan çıxarıldı, Йй hərfi isə Jj hərfi ilə əvəz olundu. Eyni zamanda bu əlifbaya rus dilində olmayan, Azərbaycan dilinin öz hərfləri üçün də müəyyən işarələr (Әә, Ҝҝ, Ҹҹ, Үү, Ғғ, Өө) əlavə olunmuşdu.

Kiril qrafikası əsasında yaradılmış bu əlifbadan 1991-ci ilə qədər istifadə olunmuşdur. SSRİ-nin dağılması ilə ölkələr hər biri, o cümlədən Azərbaycan dövləti də öz müstəqilliyini bərpa etdi. Bununla da müstəqil dövlətin dil siyasəti həyata keçirilməyə başladı ki, onun da əsas hissəsini əlifba məsələsi təşkil edirdi. Beləliklə, 1991-ci ildə Azərbaycanda latın qrafikası əsasında hazırlanmış yeni əlifbaya keçidlə bağlı qərar qəbul olundu. 1992-ci ildən artıq birinci sinifdə uşaqlar latın qrafikalı əlifbanı öyrənməyə başladılar. Yeni əlifbanın tətbiqi tədricən həyata keçirildi və bir müddət hər iki əlifba paralel istifadə olundu. Yeni əlifbaya tam keçid 2001-ci ildə başa çatdırıldı. Bu əlifba 32 hərfdən ibarət idi və 1929-cu il əlifbasına bəzi kiçik dəyişikliklərlə hazırlanmışdı. Bu əlifba layihəsinin hazırlanmasında Azərbaycanın görkəmli dilçi alimi, professor, o dövrdə Azərbaycan Əlifba Komissiyasının sədri Afad Qurbanovun xüsusi xidmətləri olmuşdur. Burada dilimiz üçün xarakterik səslərin hər birinin öz işarəsi vardır.

Müasir dövrümüzdə latın əlifbasından istifadə Azərbaycanda elmin, təhsilin, mədəniyyətin inkişafına təkan vermək baxımından çox əhəmiyyətlidir. Bu əlifba türk xalqlarının bir-birinə inteqrasiyasında, onların mədəni-siyasi əlaqələrinin genişlənməsində mühüm rol oynayır, həmçinin dünya azərbaycanlılarının birliyinin, onların əlaqələrinin genişlənməsinin simvolu kimi də çıxış edir. Bu əlifba həm də ölkəmizin beynəlxalq aləmə çıxışında bir vasitədir.

Azərbaycan dilinin ən yaxşı mühafizəkarı, eyni zamanda istifadəçisi və bilicisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uğurlu dil siyasətinin bir istiqaməti də əlifba sahəsində görülən işlər təşkil edirdi. Məhz bu işlər çərçivəsində Ulu Öndərimizin 2001-ci ilin 9 avqust tarixində imzaladığı Fərmanla avqustun 1-i "Azərbaycan əlifbası və Azərbaycan dili günü" kimi təsbit edilmişdir. Bu isə dahi rəhbərin milli əlifbaya olan hörmət və ehtiramının ən yaxşı nümunəsidir. Bunun davamıdır ki, Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə Azərbaycanda əvvəlki dövrlərdə çap olunmuş əsərlərin böyük bir hissəsi latın qrafikalı yeni əlifba ilə oxuculara təqdim olunur.

Əlifba xalqın yazı mədəniyyətini formalaşdıran əsas vasitədir. Azərbaycan əlifbası aid olduğu xalqın taleyi kimi keşməkeşli tarix yaşayaraq günümüzə çatmışdır. Xalqın keçmişini özündə əks etdirən əlifba bu gün artıq xalqımız kimi müstəqildir, ümumtürk müstəvisində istifadə olunaraq türk xalqları arasında mühüm ünsiyyət vasitəsinə çevrilmişdir.

## Dilimiz sevgimizin təcəssümüdür...



**Rafiq TƏHMƏZ**

Azərbaycan əlifbası və Azərbaycan dili...

Bu iki ad yan-yana yazılanda, elə bil, köksümüzün dərinliklərində, dahi Füzulinin "Leyli və Məcnun"u səslənir. Sanki əlifba bu ölkənin Leylisi, Azərbaycan dili isə Məcnunu olub. Uzun müddət qovuşa bilməsə də, ondan əl çəkməyib.

Bir-birinə sarılıb yaşayan iki sevgili kimidir onlar: biri yazır, danışır, digəri isə görünür və duyur.

Hər millətin yaddaşında bir əlifba hekayəsi olur. Bizim yaddaşımız isə hekayə yox, bütöv bir roman kimidir, səhifə-səhifə dəyişən, amma sonluğu eyni olan bir roman.

Qədim zamanlarda daş kitabələrə həkk edilən işarələr, ərəb qrafikası ilə yazılan klassik poeziya, sovet illərinin kiril hərfləri… Hamısı bir vaxtlar bu xalqın dərgahında olub, amma vaxtı çatdıqda bu xalqın pişvazını tərk edib. Və indi latın əlifbasının işığında danışırıq, yazırıq, oxuyuruq. Bu hərflər yalnız kağız üzərindəki işarələr deyil, eyni zamanda bir sevginin canlı şahidləridir.

Azərbaycan əlifbasının hər bir hərfi özündə bir duyğu saxlayır. "A" sanki bir körpənin ilk "ana" deyə çağırışı, "B" Babəkin Vətən uğrunda qaldırdığı azadlıq hərəkatı, "Ə" isə əl-ələ yapışaraq gəzən saf sevgilərin təcəssümü. Axı bu hərflər sırf texniki işarələrdən ibarət deyil... Onlar bizim danışan gözlərimizdir.

Və Azərbaycan dili…

Onu təsvir etmək üçün söz tapmaq da çətindir, çünki tapdığımız hər söz yenə də bu dilin özündən doğur. Bu dil nənənin soba başında danışdığı nağıl, uşaq vaxtı eşitdiyimiz layla, şəhərin səs-küyündə belə eşidilən "Qardaş" sözüdür. Bu dil bizim keçmişimiz, Dədə Qorqudun dilindən səslənən boylarda, Nizaminin misralarından axan məhəbbətdə, Füzulinin "Söz"ə verdiyi əbədi dəyərdə və babalarımızın unutmamaq üçün xısın-xısın ağlayaraq təkrarladığı kəlmələrdə gizlidir. Bu dil bizim bu günümüzdür, küçədə bir-birinə salam verən insanların səmimiyyəti, sosial şəbəkələrdə belə istifadə etdiyimiz sadə "salam" kəlməsidir.

Və bu dil bizim gələcəyimizdir… Çünki uşaqlar ilk "Ana" deyəndə o söz həm də sabahımızın ilk şeiri olur.

1 avqust tarixi, sadəcə, bir tarix deyil, bu, dilin və əlifbanın bir-birinə vurulduğu günün simvoludur. O sözlər məktublara yazılır, şeirlərə hopur, uşaq dəftərlərinə çəkilir, sevgiliyə pıçıldanır.

Bəzən bir söz bütün bir duyğunu daşıyır. Çox sadə, məsələn, "Sevgi" deyirik, ilk baxışdan beş simvol, amma o beş hərfin içində neçə həyat yaşanır! Digər bir variantda "Vətən", – deyirik. Sanki bu zaman bütün dağlar, çaylar, torpaq və səma bu sözün içinə sığışır. Bunların hamısı əlifbamızın işi, dilimizin sehri deyilmi?

Amma bir həqiqəti unutmamalıyıq: dilə sevgi yalnız bu dildə danışmaqla ölçülmür. Dili sevmək həm də onu qorumaq, ona dəyər verməkdir. Hər səhv yazılan söz bir gülün solması kimidir, hər unudulan hərf bir melodiyanın itib getməsi. Biz bu dili yalnız danışmamalı, ona könül bağlamalıyıq.

Çünki Azərbaycan dili bizim qəlbimiz, əlifba isə onun döyüntüsünü yazıya çevirən möcüzədir.

Bu gün çatanda elə bil, bütün bu duyğular bir yerdə oyanır. Əlifbanın hərfləri bu gün bir az daha cilalı və parlaq görünür, sözlər bir az daha sevgi ilə deyilir. Çünki bu gün məhz elə sözümüzün və özümüzün bayramıdır.

# Müalicə turizminin inkişafında böyük rolu olan məkan: Duzdağ

***Muxtar respublikamızın coğrafi və təbii iqlim şəraiti burada bəzi xəstəliklərin yayılmasının qarşısını alır, hətta yüz illər boyu mövcudluğunu saxlayan təbii abidələr insan sağlamlığında mühüm rol oynayır. Bu da qədim diyarımızın tanınmasında, burada müalicə turizminin inkişafında böyük əhəmiyyət daşıyır. Belə təbii abidələrdən biri də Duzdağ mağarasıdır. Burada 1917-ci ildən sənaye üsulu ilə duz çıxarılmağa başlanılıb. Böyük İpək Yolu üzərində yerləşən qədim diyarımıza elə o vaxt bu qiymətli sərvəti almağa gələn çoxlu tacir üz tutub. Mütəxəssislər uzun illərdir ki, bu mağarada tədqiqatlar aparmaqdadırlar. Əldə olunmuş elmi nəticələr Naxçıvanın zəngin təbii sərvətlərinin bu qədim yurd yerinə Ulu Tanrının böyük bəxşişi kimi dəyərləndirilir. Qeyd edək ki, uzun illər insanlar dəniz səviyyəsindən 1100 metr hündürlükdə yerləşən mağaranın müalicəvi əhəmiyyətini başa düşərək buradan kortəbii surətdə istifadə ediblər. 1979-cu ildə isə burada Duzdağ Müalicə Mərkəzi yaradılıb. Mərkəz ilk günlərdən öz fəaliyyətini uğurla qurub. Ötən müddət ərzində burada yaradılan hərtərəfli şərait mərkəzə insanların axınını daha da artırıb. Bu günlərdə mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq üçün həmin sağlamlıq ocağına üz tutduq.***













Həmkarlarımla birgə mağaranın içinə daxil oluruq. İlk baxışdan nağıllar aləminə düşdüyümüzü hiss edirik. Bizi qarşıda uzun bir yol gözləyir. O yol ki hər tərəfi kristallaşmış duzdan ibarətdir. Duz kristallarının quraşdırılmış işıqlandırma sistemi ilə birgə bir-birinə bərq vurması bu yolu ecazkar bir gözəlliyə qərq edir. Yolboyu addımladıqca mağaranın təbii aurasında duz tamını nəfəsimizdə hiss edirdik.

Məlumat üçün bildirək ki, bu gün mərkəz Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının tabeliyində fəaliyyət göstərir. Müalicə ocağının baş tibb bacısı Nuranə Mirzəyeva bizi bu möcüzəli məkanla yaxından tanış etdi. Müsahibimin sözlərinə görə, labirint şəklində, ümumi uzunluğu 46 kilometr olan Duzdağın yeraltı hissəsi girişdən 360 metr məsafədə, 110 metr dərinlikdədir. Onun sözlərinə görə, bu şəfa mərkəzində ilin bütün fəsillərində havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət 25-30 faiz arasında dəyişir, atmosfer təzyiqi 678 millimetr civə sütunundadır.

Müsahibimizin sözlərinə görə, burada pollinozlar, atopik dermatit, övrə kimi xəstəliklər müalicə edilir.

Öyrənirik ki, Naxçıvan duzu bir çox xəstəliklərin müalicəsində, o cümlədən bronxial-astma infeksion allergik forma və atopik forma, astmatik komponentli xroniki bronxitin remissiya fazası, kəskin və xroniki bronxitlər, predastma yeni astma öncəsi xəstəliklər, allergik rinosinusopatiyalarda faydalıdır. Dünyanın bir çox ölkəsində duz mədənləri fəaliyyət göstərsə də, Naxçıvan Duzdağ mağarası kimyəvi və ekoloji baxımdan fərqlənir. Digər ölkələrin duz mədənlərində havada NaCl ionlarının miqdarı 12 mq/m³ olduğu halda, Naxçıvanda bu göstərici 21 mq/m³ təşkil edir. Naxçıvandakı Duzdağda havanın tərkibində metil xlorid, metan və propan kimi zəhərli qazlara rast gəlinmir ki, bu da müalicə üçün daha təhlükəsiz mühit yaradır.

Qeyd olunmalıdır ki, yüksək müalicəvi əhəmiyyətə malik olan bu şəfa ocağına üz tutanlar Ulu Tanrının mərhəməti ilə sağalaraq geri dönürlər. Duz mağarasına müalicə olunmaq üçün muxtar respublikamızla yanaşı, ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən üz tutanlar da az deyil. Elə biz də burada olarkən Duzdağdan şəfa almaq məqsədilə gələnlərin bir neçəsi ilə həmsöhbət olduq.

Sədaqət Cabbarova bildirdi ki, 3-cü ildir, Bakı şəhərindən buraya gəlir. Nəvəsini gətirir. Onun həm özündə, həm də nəvəsində allergiya problemləri var. Hər dəfə buraya gələndə xeyrini görürlər. Nəvəsində, demək olar ki, bu problem yox olmaq üzrədir. Müsahibim deyir ki, burada xəstələr üçün yaradılmış şərait yüksək səviyyədədir. O belə şəraitə görə minnətdarlığını bildirdi.

Ordubad rayonunun Dəstə kəndindən olan Muxtar Məmmədov: "Duzdağa 4 ilə yaxındır ki, gəlirəm. Bu şəfa mərkəzi haqqında məlumatım var idi. Tələbə vaxtı gəzmək üçün buraya gəlmişdim. Amma bu dəfə gəlməyimizə səbəb həkim məsləhəti oldu. Qızımın səhhətində yaranan narahatlıqdan sonra onunla birgə buraya üz tuturam. Həqiqətən, məsləhətli bir müalicəvi mərkəzdir. Çünki hər dəfə gələndə xeyrini görürük. Buranın kollektivi mərkəzə üz tutan hər bir kəslə yaxından maraqlanır. Bizə göstərilən qayğıya görə hər bir kollektiv üzvünə ailəm adından minnətdarlığımı bildirirəm".

Mağarada kiçik bir qız uşağı diqqətimizi cəlb etdi. Onunla buraya gəlmiş yaxın qohumuna yaxınlaşıb tanış olduq. Öyrəndik ki, Miray adlı bu qız səhhətində yaranmış problemlə bağlı buraya gətirilib. Ukraynanın Xarkov şəhərində yaşayan Mirayın 8 yaşı var. İlk dəfədir, buraya gəlir. Bir neçə gündür, müalicədədir və buranın onun çox xoşuna gəldiyini bildirir.

Müalicəyə gələnlər içərisində bir Almaniya vətəndaşı da var. Zemfira Rzayeva nəvəsi Donevini müalicə üçün buraya gətirib. Zemfira xanım deyir ki, həkimdir. Nəvəsinin səhhətində yaranan problemlər onların ailəsində narahatlığa səbəb olmuşdu. Davamlı müalicə alsa da, nəticəsiz qalırdı. Öyrənib bilibləр ki, Azərbaycanın bu gözəl guşəsində belə bir müalicəvi məkan var. Və buraya gəlməyi qərara alıblar: "Burada olduğumuz günlər ərzində nəvəmin səhhətində nəzərəçarpacaq dərəcədə dəyişiklik olacağına ümid edirəm. İnanıram ki, müalicə mərkəzi nəvəmin tam sağalacağı unikal məkandır. Nəvəm tam sağalana qədər buraya gəlməyi planlaşdırıram".

Donevin də nənəsinin fikirlərini təsdiq etdi. Mağaradan çox xoşu gəldiyini bildirdi. O da nənəsi kimi sağalacağına ümidlidir. Sonda Donevin bu möcüzəli mağara haqqında dostlarına da danışacağını, burada çəkdirdiyi şəkilləri də göstərəcəyini bildirdi.

Son olaraq buraya şəfa tapmaq üçün istər Naxçıvanımızdan, istərsə də xarici ölkələrdən gəlmiş insanlara sağlamlıq arzularımızı bildirməklə buraya gələnlərə göstərilən xidmətə görə qürur duyduq.

**✍ Aidə İBRAHİMOVA**



# Məhəbbətin və istedadın əzəməti haqqında poema



***Azərbaycan ədəbiyyatında özünün zəngin lirikası ilə yaddaşlarda dərin iz buraxan mötəbər sənətkarlardan biri də Adil Babayevdir. 1920-ci illərdən sonra Azərbaycan ədəbiyyatında lirik poeziya sahəsində qüdrətli ədəbiyyat adamı, milli poeziyanın günəşi Səməd Vurğunun adı ilə bağlı şeir məktəbi özünün qüvvətli ardıcıllarını yetirməklə Azərbaycan ədəbiyyatına zənginlik qatırdı. Xalq şeiri ənənələri üzərində formalaşmış bu məktəb vətənə məhəbbət motivləri üzərində köklənərək Azərbaycan vətəndaşlıq lirikasının inkişaf etdirirdi. Vətən təbiətinə bəslənilən sonsuz məhəbbət, onun zənginliyi və füsunkarlığının öyülməsi, tarixi, mədəniyyəti, dəyərlərinin təqdimi və təbliği bu lirikanın başlıca məzmunu və mövzularını təşkil edirdi. Bu sahədə yetişən qüdrətli sənətkarlardan biri kimi Adil Babayevin özünün imzası və mövqeyi var idi.***

Şairin poeziyasında xüsusi yeri olan "Memarın məhəbbəti" əsəri də bu cür xüsusi əhəmiyyətə malik olan, həm mövzu, həm forma, həm də ideya olaraq sənətkarın yaradıcılığına böyük məziyyət gətirməkdədir. Ümumiyyətlə, şair Adil Babayevin lirik ustalığı, lirika və təhkiyənin qovuşuq janrı olan poema sahəsində özünü daha qabarıq təzahür etdirir. Adil Babayevin yaradıcılığı üçün xarakterik olan poema janrına aid "Gecikmiş bahar", "Memarın məhəbbəti", "Dan yeri sökülür", "Babəkdən sonra", "Qız qalası", "Ölməyə vətən yaxşı", "Qartal qanadları" kimi əsərlərində şairin poetik ustalığı və sənətkarlığı çox məharətlə özünü nümayiş etdirir. Şair Adil Babayev lirik şeirin tərənnüm imkanları ilə vətənə sevgi və vətəndaşlıq qayəsi ortaya qoyduğu kimi, epik şeirin imkanları daxilində də vətənin tarixinə qayıdış ehtiyacı və milli mənlik düşüncəsini əks etdirməyə nail olmuşdur. Odur ki, Adil Babayevin yaradıcılığında lirik vüsətlə epik təhkiyə bir-birinə qovuşuq addımladığı kimi, tarixilik, millilik və fəlsəfilik də o cür yanaşı, qoşa təzahür tapır. "Memarın məhəbbəti" adlı poema da belə əsərlərdən biridir. Əsər XII yüz il Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi Əcəmi Əbubəkr oğlu Naxçıvanidən bəhs etdiyi kimi, onun adı dillərə dastan olan, dünya mədəniyyətində dərin iz buraxan, böyük məktəb formalaşdıran sənət dünyası və Möminə xatun türbəsinin ərsəyə gəlməsi barəsindədir.

Məlum olduğu kimi, Möminə xatun türbəsi bir dünya mədəniyyəti incisidir. Dünyaca məşhur neçə abidə məhz Əcəminin Möminə xatun türbəsinin ənənələri üzərində formalaşmışdır. Tac Mahal abidəsi də həm memarlıq üslubu, həm də hekayət ilə Möminə xatun türbəsinin ən nadir ardıcıllarından biridir. Ölkə başçısı cənab İlham Əliyevin dünyanın nadir incilərindən olan Möminə xatun türbəsinin bərpası ilə bağlı Sərəncamı da bu abidəyə və ona həsr edilən qiymətli bir əsərə qayıtmaq ehtiyacı yaradır.

"Memarın məhəbbəti" adlı əsər poema janrındadır. Əsərin baş qəhrəmanı Naxçıvandan olan, Atabəylər dövlətinin baş memarı kimi geniş şöhrətə çatmış, ucaltdığı Möminə xatun türbəsi ilə dünya şöhrəti qazanmış, Azərbaycan mədəniyyətinin simvoluna çevrilən unudulmaz sənət adamlarından biri olan Əcəmi Əbubəkr oğludur. Əsərin də başlıca hadisəsini Memar Əcəminin dövrü və mübarizəsi, yaddaqalan həyat və yaradıcılıq fəaliyyəti təşkil edir. Poema müxtəlif bölmələrdən ibarət qurulmuşdur. "Tozlu yollar", "Qardaş dərdi", "Təlaş", "Sarayda", "Nişan üzüyü", "Karvan gedir Araz boyu", "Bu qala, daşlı qala", "Bəlkə, getdi, gəlmədi", "Xəyanət", "Zindan", "Vəba", "Şairin iltiması", "Nə şirinsən azadlıq!", "Məhəbbət abidəsi" və başqa başlıqlardan ibarət maraqlı bölmələr əsərdə yer almışdır. Poemanın qəhrəmannamə olduğunu bir daha nəzərə alaraq əsərdə memar Əcəminin həyatı, fəaliyyəti və taleyi ilə qabarıq bir obraz təşkil etdiyini, mühüm mücadilələrlə qovuşuq bir həyata və fəaliyyətə sahib olduğunu şair əks etdirməyə çalışmışdır. Poemada epik təhkiyə qüvvətli olduğu kimi, dramatizmə də sahibdir. Hadisələrin xüsusi dramatizmlə təqdimi əsərə epik pafos və canlılıq təsiri bağışlayır.

Əsərdə gənc bir sənətkar olaraq memar Əcəmi Əbubəkroğlunun həyat mücadiləsi, ədalət naminə haqq uğrunda savaşı əks olunubdur. Gənc bir sənətkarla qoca bir sarayın qarşıdurması və mübarizəsi əsərin ruhu və qayəsini təşkil edir. Əsərində giriş xarakteri daşıyan "Tozlu yollar" hissəsi şairin vətəni haqda səmimi və üsyankar duyğularını dilə gətirməsi, əsərin ümumi pafosu və ruhuna sirayət edən fikirlər aşılaması baxımından çox diqqətəlayiqdir. Atası işğalçı, zalım bir siyasi qüvvənin şər-şamatası ilə həbs edilib güllələnən, ailəsi qansız bir rejimin üzdəniraq qərarları və qınaqları ilə dərbədər düşən, hər cür səfalət, rəzalət və əziyyətlə qarşılaşan şair Adil Babayevin üsyankar və qəzəb dolu bir etirazı burada təcəssüm taparaq əsərin qayəsi və taleyinə çevrilmişdir. Şair bir vətəndaş olaraq işğalçıya, qəsbkara etiraz və üsyan edir, lənət və intiqam oxuyaraq qəzəb və mübarizə ruhu ortaya qoyur:

*...qarət oldu yoxun-varın.*
*Hər düzündən, hər dağından*
*Hər elindən, oymağından*
*ərşə qalxdı fəğan, nalə.*
*Eh, birmidir, ikimidir*
*Sərvətinlə varlananlar?*
*Hər daşında*
*Qan izi var,*
*Yad gözü var!*
*Sən ey cəsur, ey cəfakeş*
*həmvətənim!*
*Sonsuz eşqin, böyük dərdin*
*Qəlbimdədir hər an mənim.*
*...Eh nə deyim, özün*
*böyük, dərdin böyük!*

Şairin peşəkarlığı və sənətkarlığı oradadır ki, vətəndaş qəlbinin ağrılarını, üsyan və mübarizə motivlərini düşmənin ruhu duymadan sözün bədii məharəti, ifadə gücü və üslubi imkanları ilə diqqətə çatdırmağa nail olur. Söz ustalığı sözdən bədii obrazlı istifadənin özünəməxsusluğu ilə öz realluğunu tapır. A.Babayevin sənətkarlıq məharəti və söz ustalığı həm də başlıca ideya-fikri mətləblərin didaktik üslubi konstruksiyalarla ifadələrdə öz təzahürünü tapır. Yığcam, lakin dərin məzmun ifadə edən belə üslubi konstruksiyalar məharətlə istifadə edilməklə poetik kamillik nümayiş etdirir, əsərə bədii gözəllik və məna dərinliyi bəxş edir.



Əsərdə hadisə və əhvalatların baş verdiyi qalaktika Əcəmi ilə Səyyarənin saf sevgisi əhatəsindədir. Şair heç bir tarixi fakta söykənmədən əsərə gözəllik və məna qatan bir eşq-məhəbbət süjeti yaradır və ədalət, haqq uğrunda gedən ağır və çətin bir savaşı bu süjetin, eşq xəttinin əhatəsində təqdim edir. Şairin uydurduğu Səyyarə obrazı da adından tutmuş bədii roluna qədər gənc bir aşiq sənətkarın həyat və sevgi mübarizəsinin alovlandığı güc, təməl, qüvvə olaraq təqdim edilir. Səyyarə ulduz anlamında məhz bu eşq qalaktikası və ya dünyasını təcəssüm etdirir. Bir mahir sənətkar olaraq Əcəminin yaratdığı nadir bir gözəllik və sənət möcüzəsi olaraq Möminə xatun türbəsi eşqdən yoğrularaq saf, təmiz və əbədiyaşar bir məhəbbət xatirəsinə çevrilir, Atabəy Eldənizin həyat yoldaşı Möminə xatuna, Məhəmməd Cahan Pəhləvanın anaya, gənc sənətkar olan Əcəminin sevgilisi Süreyyanın eşqinə möhtəşəm bir abidə olaraq ucalır, eşqin intəhasızlığı və ucalığını rəmzləşdirərək göylərə qaldırır.

Əsərdə tarixilik baxımından yol verilmiş yanlışlığı da qeyd etməyə lüzum vardır. Şair Adil Babayev, görünür, ictimai-bədii düşüncədə Nizami Gəncəvinin əzəmətli yerinə həssasiyyət göstərərək yaş və qarşılıqlı hörmət etibarilə Nizami Gəncəvini Əcəmidən daha ahıl və böyük təqdim edir. Söz yox, bu, şairin sənətkarlıq manipulyasiyası kimi izah edilə bilər. Lakin tarixi inkar və faktologiya əleyhinə olduğu üçün qeyd etməyə ehtiyac var ki, mənbələrin tam mənası ilə təsdiq etdiyi kimi, Əcəmi Əbubəkr oğlu öz zamanında dünyaca şöhrət qazanıb Atabəylər sarayının baş memarı kimi tanınıb hörmət duyulduğu bir vaxtda Nizami Gəncəvi hələ gənc və sənətdə çox da adsan qazanmamış bir şair idi. Hətta yazılanlara bunu da əlavə etmək olar ki, mütəxəssislərin fikrincə, məhz bu nadir şöhrət və istedaddan irəli gələrək Nizami Gəncəvi Memar Əcəmi ilə görüşmək ehtiyacı duyaraq Naxçıvana səfər etmiş, Batabat yaylağı tərəfdə Şərqin qoca memarı ilə görüşmüşdü. Bu fakt olmasa belə Əcəminin Nizamidən daha yaşlı və şöhrətli olması qənaətini qəti olaraq inkar etməz. Amma, əlbəttə, əsərdə min illərə sinə gərib bu günə qədər daşınan və özündə anaya-qadına intəhasız məhəbbət və ehtiramı rəmzləşdirən Möminə xatun türbəsinin möhtəşəmlik və möcüzəvi gözəllik sirrini şairin memarın öz eşqinə sədaqəti olaraq mənalandırması olduqca təqdirəlayiq və əhəmiyyətlidir. Əlbəttə, bu cür yanaşma və mənalandırma bir çox abidələrə münasibətdə yazıçılar tərəfindən məhz bu cür izah və şərh edilmiş, bədii əsərin süjetinin nüvəsinə gətirilmişdir.

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Media danışır, dəyərlər isə susur



✍ Günay HACIYEVA

***Yeni medianı hansı prinsiplə idarə edək?***

Zamanın ritmi dəyişdi. Sürət əsrindəyik. Fikirlər, hisslər, münasibətlər… hər şey saniyələrlə ölçülür. Bu yeni dövrün adı "yeni media" dövrüdür – parlaq, sürətli, cazibədar və bir o qədər də susqun. Susqun, çünki əsl səslər getdikcə azalır, dəyərlər isə pıçıltı kimi itib gedir. Əvvəllər insanlar bir-birinə baxanda danışırdılar. İndi ekranlara baxırıq, amma bir-birimizə deməyə sözümüz getdikcə azalır. Hər kəs danışır, amma heç kim eşitmir. Ən acınacaqlısı isə budur: dəyişən təkcə texnologiya deyil, dəyişən bizik. Dəyər anlayışı – keçmişin mirası, gələcəyin ehtiyacı.

***Köhnə dəyərlər deyəndə ağlımıza nə gəlir?***

Ədəb, hörmət, sədaqət, təvazökarlıq, ailəyə bağlılıq, böyüyə ehtiram, sözə sadiqlik… Bunlar uşaqlara ilk öyrədilən anlayışlar idi. Bu dəyərlər nənələrin nağılında, ataların sükutunda, müəllimlərin baxışında gizli idi. Amma indi biz uşaqlarımıza telefonun ekranını uzadırıq, dəyərləri yox, filtrli üzləri göstəririk. Yeni media ilə birlikdə dünya əlimizin içindədir. Bu bir fürsətdir, həm də bir təhlükə. Hər paylaşım, hər görüntü, hər video insanlara nəyi sevəcəyini, nəyi gülməli, nəyi "trend" sayacağını diktə edir. Belə bir axında ədəb və təvazökarlıq sanki səs-küydə itib gedir.

***Səmimiyyətin itdiyi dövr***

Bəlkə də, yeni medianın bizdən aldığı ən böyük dəyər səmimiyyətdir. Əvvəllər insanlar duyğularını məktublarla bölüşərdi. Hər kəlmə fikirlə yazılar, hər cümlə ürəkdən keçərdi. İndi isə emoji ilə hiss göstəririk, "SMS" ilə cavab veririk, "story" ilə duyğularımızı dilə gətiririk. Bəlkə də, hiss edirik, amma yaşaya bilmirik. Yeni medianın ən böyük paradoksu budur: insanları yaxınlaşdırır, həm də uzaqlaşdırır. Fiziki məsafə yox olur, amma ruhi məsafə artır. Yaxşılıq da, sevgi də "virallaşır", amma dərindən yaşanmaqdan çıxır.

***Yeni medianın işığında...***

Bütün bunlara baxmayaraq, bu yazı bir nostalji yazısı deyil. Nə də texnologiyaya qarşı bir üsyan. Əksinə, bu yazı oyadıcı bir çağırışdır: yeni media nəinki dəyərləri dağıda bilər, əksinə, onları yaşada da bilər. Əgər bir video ilə zorakılığın üstü açılırsa, bir paylaşım ilə kənddəki uşaq məktəb ləvazimatı əldə edirsə, bir çağırışla qan ehtiyacı olan xəstəyə donor tapılırsa, bu, medianın vicdanla işləyən üzüdür. Əgər biz yeni medianı vicdan, məsuliyyət və dəyər prinsipi ilə idarə etsək, o zaman bu parıltının içində dəyərlər də görünə bilər.

***Biz hansı tərəfə gedirik?***

Əgər bu sualı özümüzə indi verməsək, sabah artıq cavab tapmaq çox gec ola bilər. Yeni media bizi formalaşdırmasın, biz yeni medianı formalaşdıraq. Əgər ədəb və səmimiyyət trend olmazsa, heç olmasa, itib getməsin. Gənclər diqqət çəkmək üçün özünü itirməsin, uşaqlar dəyəri ekranın içində yox, ətrafında görsün. Unutmayaq: dəyərlər yaşamadıqca yox olur. Və hər bir dəyər bir insanın içində dirilə bilər. Yeni media dövründə yaşayırıq, bəli. Əgər biz içimizdəki köhnə dəyərləri diri saxlasaq, texnologiya onların düşməni deyil, daşıyıcısı ola bilər. Dəyərləri ekranda yox, ürəklərdə paylaşaq.

# Naxçıvanda dabaq xəstəliyindən azad zona yaradılması prosesinə başlanılıb

*Müasir dövrdə beynəlxalq ticarət qaydaları heyvan və heyvan mənşəli məhsulların yalnız xəstəliklərdən azad ərazilərdən ixracına icazə verir. Bu səbəbdən bir çox ölkələrdə xüsusi sağlamlıq statusuna malik zonaların yaradılması böyük önəm kəsb edir. Bu istiqamətdə atılan mühüm addımlar nəticəsində bir sıra xəstəliklərə görə ölkəmiz artıq beynəlxalq səviyyədə tanınmış "azad status" əldə edib. Lakin dünyada yayılma potensialı və iqtisadi təsirləri baxımından ən təhlükəli heyvan xəstəliklərindən biri olan dabaq xəstəliyi ilə mübarizə hələ də prioritet məsələlərdən biridir.*

*Hazırda Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bu xəstəlik üzrə beynəlxalq azad statusun əldə olunması üçün təşəbbüslə çıxış edir. Artıq Naxçıvan Muxtar Respublikası başda olmaqla ölkənin bir neçə bölgəsində dabaq xəstəliyindən azad zonaların yaradılması istiqamətində praktiki işlərə başlanılıb.*

Mövzu ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Baytarlıq və fitosanitar nəzarəti şöbəsinin müdiri Məhəmməd Hüseynov bildirdi ki, beynəlxalq ticarət qaydalarına görə heyvan və heyvan mənşəli məhsulların ixracı ancaq xüsusi təhlükəli heyvan xəstəliklərinin mövcud olmayan ölkələrdən, bu mümkün olmadıqda isə həmin ölkələrin müvafiq qaydalara uyğun olaraq sağlamlıq statusu əldə etmiş regionlarından həyata keçirilir. Başqa sözlə, bütövlükdə, ölkə ərazisində epizootik stabilliyi təmin etmək mümkün olmadıqda ölkənin bir hissəsi ayrılaraq orada xüsusi qaydalar əsasında sağlamlaşdırma tədbirləri həyata keçirilir və beynəlxalq ticarətin aparılması üçün şərait yaradılır, bu zonalar da heyvan xəstəliklərindən azad zonalar adlanır.




Müsahibimiz deyir ki, Azərbaycan 2024-cü ildə ÜHST tərəfindən xırdabuynuzlu heyvanların taunu və yüksək patogen quş qripi xəstəliyindən azad ölkə kimi tanınmış, eyni zamanda əvvəlki illərdə əldə edilmiş atların və donuzların Afrika taunu xəstəliyindən azad statusu qorunub saxlanılmaqdadır: "Müvafiq beynəlxalq təşkilatların məlumatına əsasən son 50 ildə dabaq xəstəliyi dünyada geniş yayılıb və beynəlxalq ticarətə maneə yaratması ilə fərqlənir. Aparılmış planlı sağlamlaşdırma tədbirləri nəticəsində hazırda 68 ölkə dabaq xəstəliyindən azad status almış, 11 ölkə (Argentina, Boliviya, Braziliya, Çin Respublikası, Kolumbiya, Ekvador, Qazaxıstan, Malaziya, Moldova, Namibiya, Rusiya) "peyvəndləmə aparmadan"azad zona, 8 ölkə isə "peyvəndləmə aparmaqla"(Argentina, Boliviya, Braziliya, Çin Respublikası, Kolumbiya, Ekvador, Qazaxıstan, Türkiyə) azad zona kimi tanınır. Azərbaycan bu xəstəliyə görə "qeyri-sağlam"epizootoloji statusa malikdir.

Ölkəmizin çox böyük tranzit imkanına malik olduğunu vurğulayan Məhəmməd Hüseynov onu da qeyd etdi: "Heyvan xəstəliklərindən azad statusunun olmaması ixrac və tranzit imkanlarını məhdudlaşdırır. Belə ki, Azərbaycandan hazırda məhdud sayda heyvan və mənşəli məhsullar ixrac olunur və qarşıda duran hədəflər ondan ibarətdir ki, həm ixrac olunan məhsulların sayı, həm də ixracatın coğrafiyası genişləndirilsin. Ərazilərimiz işğaldan azad olunandan və sərhədlərimizin bütövlüyü bərpa edildikdən sonra heyvan xəstəliklərindən, xüsusilə də dabaq xəstəliyindən azad zona ilə bağlı təşəbbüs irəli sürülüb və Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi tərəfindən dabaq xəstəliyindən azad zonaların yaradılması üçün Ölkə Nəzarət Proqramı hazırlanaraq Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına təqdim edilib. Beynəlxalq tələblərə görə, xəstəlikdən azad zonanın sərhədləri təbii sərhədlər, məsələn, çaylar, dağlar, çətin keçilən yerlər və eyni zamanda dövlət sərhədləri də ola bilər. Beləliklə, ilkin olaraq Naxçıvan Muxtar Respublikası ərazisində, eləcə də Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında (Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının əraziləri tam, Füzuli, Xocavənd və Laçın rayonlarının əraziləri qismən əhatə edilməklə) dabaq xəstəliyindən azad zonaların yaradılması prosesinə başlanılıb. Bu regionlar kənd təsərrüfatı, xüsusilə də heyvan istehsalı üçün böyük potensiala malikdir. Belə ki, xəstəlikdən azad statusun əldə edilməsi ilə heyvanlar və onlara aid məhsulların ixracatının həyata keçirilməsi, eyni zamanda ölkəmizin ərazisi vasitəsilə diri heyvanların tranzit daşınmasında maneələr aradan qalxacaq və ölkələrarası əməkdaşlıq üçün yeni imkanlar yaranacaqdır".

Məhəmməd Hüseynov nəzərə çatdırdı ki, prosedurun ilkin şərtlərindən biri həmin zonalarda saxlanılan heyvanlar, heyvandarlıq təsərrüfatlarının qeydiyyata götürülməsi, heyvanların identikləşdirilərək heyvanların identifikasiyası sistemində uçota alınması və izlənmə tədbirlərinin həyata keçirilməsidir. Burada ilkin mərhələdə dabaq xəstəliyinə peyvəndləmə aparılmaqla azad statusun alınmasına nail olunacaq, növbəti mərhələdə isə bu təcrübə digər ərazilərimizdə genişləndiriləcəkdir ki, ölkəmiz tamamilə xəstəlikdən azad olunsun. Qeyd edək ki, son illərdə AQTA və Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri tərəfindən ölkə ərazisində aparılan epizootoloji və seroloji monitorinqlərdə xəstəliyə aid klinik təzahürlər və törədicisinə rast gəlinməyib. Bu da epizootik stabilliyin qorunub saxlanıldığını göstərir. Kompakt coğrafi mövqeyi, iri və xırdabuynuzlu heyvan və atların sayının məhdud olması Naxçıvan Muxtar Respublikasında identifikasiya işlərinin qısa müddətdə həyata keçirilməsinə və bütün ərazidə heyvan xəstəliklərindən azad zonanın yaradılmasına zəmin yaradan əlverişli faktorlardır.

Söhbətimizdən o nəticəyə gəlmək olar ki, bu təşəbbüs yalnız heyvan sağlamlığının qorunmasına deyil, eyni zamanda Azərbaycanın ixrac potensialının artırılmasına, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsinə, habelə Zəngəzur dəhlizi vasitəsilə Naxçıvandan keçən tranzit daşımalarının rəqabət qabiliyyətinin yüksəldilməsinə mühüm töhfə verəcək.

**"Şərq qapısı"**

# "Ləzzət Group"un 30 illik yubileyi münasibətilə görüşlərə start verilib





"Ləzzət Group"un 30 illik yubileyi münasibətilə şirkətin rəhbərliyi tərəfindən müəssisədaxili silsilə görüşlərə start verilib. Bu görüşlər çərçivəsində şirkət rəhbəri Teymur Rzayev müəssisələrdə çalışan əməkdaşlarla bir araya gəlir və onların hər birinə şəxsi təşəkkürnamələr təqdim edir.

Qeyd edək ki, görüşlər 7 gün ərzində "Ləzzət Group"un müxtəlif istehsalat bölmələrinin işçi heyəti ilə həyata keçiriləcək.

Şirkətin bu təşəbbüsü 30 illik inkişaf yolunda əməkdaşların roluna verilən dəyərin və təşəkkürün ifadəsidir. Yubiley münasibətilə həyata keçirilən bu təşəbbüs şirkət üçün dəyərlərin və birliyin simvoludur. Eyni zamanda görüşlərdə əməkdaşlarla "Ləzzət Group"un gələcək planları barədə fikir mübadiləsi aparılır.

Xatırladaq ki, "Ləzzət Group" 1995-ci ildən fəaliyyət göstərir və bu gün ölkənin aparıcı qida istehsalçılarından biri kimi tanınır.

# Naxçıvan şəhərindəki "İsmayıl xan hamamı"nın bərpası istiqamətində işlərə başlanılıb



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planında öz əksini tapmış layihələr, habelə investisiya layihələri Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən diqqətdə saxlanılır, bu istiqamətdə bir sıra işlər həyata keçirilir.

Həyata keçirilən tədbirlərin davamı olaraq XVIII əsr memarlıq abidəsi "İsmayıl xan hamamı" bərpa ediləcək. Abidənin bərpası üçün layihə-smeta sənədlərinin hazırlanması məqsədilə nazirlik tərəfindən elan olunmuş satınalma yekunlaşıb.

Layihə-smeta sənədlərinin hazırlanması qalib şirkət olan "Azərbərpa Elmi-Tədqiqat Layihə İnstitutu" MMC-yə tapşırılıb.

Qeyd edək ki, tərəflər arasında imzalanmış müqaviləyə əsasən tarixi abidənin ətrafının abadlaşdırılması, topoqrafiya və geologiya işləri, interyer dizaynı, daxili tərtibat və digər işlərin görülməsi nəzərdə tutulur.

Gələcəkdə də muxtar respublika ərazisində tarixi abidələrin qorunması və bərpası istiqamətində işlər davam etdiriləcək.

# Naxçıvanda bəzi şəhər və kənddaxili avtomobil yolları əsaslı təmir olunacaq

Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən muxtar respublikanın bir sıra yerli əhəmiyyətli və kənddaxili avtomobil yollarında əsaslı təmir işlərinin aparılması ilə bağlı hazırlanmış layihələrdən birinin tender mərhələsi başa çatıb. Tenderin qalibi Bakı şəhərində fəaliyyət göstərən "Elta Development" QSC olub. Hazırda tərəflər arasında müqavilənin bağlanması prosesi həyata keçirilir. Bu mərhələ başa çatdıqdan sonra cəmiyyətin əməkdaşları tərəfindən Ordubad, Şahbuz, Babək və Culfa rayonlarının bəzi şəhər və kənddaxili avtomobil yollarında əsaslı təmir işlərinə başlanılacaq.

Qeyd edək ki, təmir-bərpa işləri Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyinin nəzarəti altında icra olunacaq. Eyni zamanda Naxçıvan şəhərinin mərkəzi küçələri və digər rayonların avtomobil yolları ilə bağlı hazırlanan layihələrin də tender mərhələsi davam etdirilir.





# Muxtar respublikada yazlıq əkin sahələri artıb

Cari ilin ilk yarımilində muxtar respublikada 5791,1 hektar sahədə yazlıq bitkilərin əkini həyata keçirilib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz artım deməkdir. Əkin strukturu əsasən dənli və dənli-paxlalı bitkilər, dən üçün qarğıdalı, kartof, tərəvəz, bostan bitkiləri və yemlik bitkilərdən ibarətdir.

Sözügedən tarixə 15 min tondan çox dənli və dənli-paxlalılar, 2300 tondan çox kartof, 4 min tondan çox tərəvəz, 14 min tondan çox isə meyvə və giləmeyvə yığılıb.

Ümumilikdə isə cari ilin ilk 6 ayında muxtar respublikada 144 969,6 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bunun da 46 min manatdan çoxu bitkiçilik məhsullarının payına düşür.

# Dövlət orqanlarının 37 əməkdaşı ixtisaslaşmış təlimləri uğurla başa çatdırıb





Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyində fəaliyyət göstərən "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin təşkil etdiyi uzunmüddətli təlimlərin 174 nəfər iştirakçısından 37 nəfəri qatıldıqları təlimləri uğurla başa çatdırıblar. "Rəhbərlər üçün İnkişaf Proqramı" təlimini 15 nəfər (hər biri 32 saat olmaqla, 2 sessiya, 46 iştirakçı), "Dövlət satınalmaları və tətbiqi" təlimini 11 nəfər (hər biri 18 saat olmaqla, 2 sessiya, 43 iştirakçı), HR təlimlərini 7 nəfər (hər biri 24 saat olmaqla, 2 sessiya, 39 iştirakçı), SMM təlimini 4 nəfər (8 saat olmaqla, 1 sessiya, 46 iştirakçı) uğurla başa vuraraq imtahanlarda yüksək nəticə əldə ediblər.

Hazırda "Naxçıvan Təlim Mərkəzi" PHŞ-nin təşkil etdiyi "Maliyyə və mühasibat uçotu" və "Microsoft Office proqramları" təlimləri davam edir. Paralel olaraq mütəmadi şəkildə ƏMAS, SƏTƏM və digər istiqamətlər üzrə qısamüddətli təlimlər keçirilir.

Avqustun sonuncu dekadasından etibarən uzunmüddətli təlimlərin yeni sessiyalarının keçirilməsinə hazırlıq işləri aparılır.

2025-ci ilin 7 ayı ərzində mərkəzdə keçirilən təlimlərdə 80-ə yaxın dövlət qurumundan 1037 nəfər qısamüddətli və uzunmüddətli təlimlərdə iştirak etmişdir.

# DÜNYA xəbərləri

## İtaliyanın ən böyük asma körpüsü 13,5 milyard avroya başa gələcək

İtaliyada tikintisinə başlanacaq ən böyük asma körpünün layihə dəyəri 13,5 milyard avrodur.

Bu barədə layihəyə nəzarət edən "Stretto di Messina" şirkəti məlumat yayıb. Bildirilir ki, materiki Siciliya adası ilə birləşdirəcək körpünün layihəsi təsdiq üçün CIPESS iqtisadi planlaşdırma komitəsinə təqdim ediləcək. Layihənin ümumi dəyəri körpünün tikintisi, 40 kilometrlik avtomobil və dəmir yolu alaqəsi, 3 yeni qatar stansiyası və Kalabriya regionundakı biznes mərkəzi də daxil olmaqla, 13,5 milyard avro olacaq.

Messina boğazı üzərində inşa olunacaq dünyanın ən uzun asma körpüsü 2032-ci ilədək tamamlanacaq.

## İngiltərədə nadir 4 min illik Misir əl izi tapılıb

Kembric Universitetinin tədqiqatçıları tərəfindən qədim misirlilərə məxsus 4 min illik tam əl izi aşkarlanıb.

Tapıntı yeni sərgi üçün hazırlıqlar zamanı kuratorlar tərəfindən qədim Misirdə dəfn mərasimlərində istifadə olunan "ruh evi" adlı gil model üzərində müəyyən edilib. Arxeoloqların fikrincə, bu gil model e.ə. 2055-1650-ci illərə aiddir və binanı xatırladan formada hazırlanıb. Fitzvilyam muzeyinin baş misirşünası Helen Strudvik bu əl izinin çox nadir və həyəcanverici olduğunu bildirib: "Adətən, yaş lakda və ya tabut üzərində barmaq izlərinə rast gəlmişik, lakin bu cür tam və dəqiq əl izinə ilk dəfə rast gəlirik. Bu iz hələ gil qurumamışdan əvvəl onu hazırlayan şəxs tərəfindən qoyulub. Misirə məxsus əşya üzərində belə tam iz izinə heç vaxt rast gəlməmişəm", – deyə o, bildirib.

Sözügedən artefakt oktyabrın 3-də Fitzvilyam muzeyində açılacaq sərgi çərçivəsində nümayiş olunacaq.

## 2030-cu ilədək Səudiyyə Ərəbistanında 100 milyon ağacın əkilməsi planlaşdırılır

2030-cu ilədək "Yaşıl Səudiyyə" təşəbbüsü çərçivəsində 100 milyon manqrov ağacının əkilməsi planlaşdırılır.

Səudiyyə Ərəbistanının Bitki Örtüyünün İnkişafı və Səhralaşmaya qarşı Mübarizə Mərkəzi bu təşəbbüs çərçivəsində indiyədək artıq 52 milyon ağac tingi-nin əkildiyini bildirib.

Manqrov meşələri özündə bir çox funksiyanı birləşdirən bütöv ekosistemlər sayılır. Onlar quşlar, balıqlar və digər dəniz canlıları üçün təbii yaşayış mühiti yaradaraq bioloji müxtəlifliyin artırılmasına töhfə verir. Bu ağaclar karbon qazını udmaq və saxlamaq baxımından yüksək qabiliyyətə malikdir. Manqrov meşələri sahilyanı icmalar üçün əhəmiyyətli iqtisadi resurs da sayılır. Bu ağaclar qida dəyəri yüksək bal verən çiçəklərə malikdir.

## Humay Qafarova millimizin heyətində daha bir uğur qazanıb



Portuqaliyanın paytaxtı Lissabon şəhərində "5th World Gym for Life Challenge" beynəlxalq yarışması keçirilib. Azərbaycanı bu yarışda "Gimnastika hamı üçün" növü üzrə təmsil edən milli komandamız uğurlu çıxışı ilə fərqlənib. Naxçıvanda bədii gimnastika və gimnastika hamı üçün idman növləri üzrə məşqçi kimi fəaliyyət göstərən Humay Qafarova da yarışmada çıxış edən komandamızın heyətində olub.

Müxtəlif yaş və bacarıq səviyyəsinə malik üzvlərdən ibarət "Flame" komandası kreativ xoreoqrafiyası, səhnə estetikası və yüksək komanda ruhu ilə münsiflər heyətinin diqqətini cəlb edərək ikinci yerə layiq görülüb.




## Naxçıvanlı şahmatçılar Türkiyədə fərqləndilər – *biri beynəlxalq turnirin mükafatçısı oldu*



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən şahmatçılar iyulun 14-dən etibarən Türkiyənin müxtəlif şəhərlərində start götürən liqa yarışları və turnirlərdə iştirak ediblər. Təmsilçilərimizdən 1-i I liqada, 4-ü II liqada, 2-si isə beynəlxalq turnirdə mükafatçı yerlər uğrunda mübarizə aparıblar. Onlardan ikisi istəyinə nail olub.

Bundan öncəki illərdə Türkiyənin müxtəlif bölgələrində uğurlu nəticələrə imza atan istedadlı şahmatçılarımız Hüseyn Qənbərli bu dəfə Ankaranın Çubuk bölgəsində keçirilən "Çubuk Belediyesi Uluslararası Açık Satranç Turnuvası" adlı beynəlxaq yarışda iştirak edib. 9 ölkədən 400-dən çox idmançının qatıldığı yarışda təmsilçimiz "C" kateqoriyasında görüşlər keçirib. 9 turdan 7.5 xal toplayan idmançımız eyni göstəriciyə malik türkiyəli Ahmet Gürkanla şəxsi görüşün nəticəsinə görə ümumi sıralamada ikinci olub. Bununla da Hüseyn beynəlxalq turnirin gümüş medalına layiq görülüb.

Təcrübəli şahmatçımız, beynəlxalq usta Pərviz Qasımov isə "Seyhan Belediye Spor Kulübü" komandasının heyətində Dənizli şəhərində təşkil olunan Türkiyə II liqasında çıxış edib. Komandası 11-ci olsa da, Pərviz 7 xallıq göstərici ilə 1-ci masada ikinci, üçüncü (əmsala görə 3-cü) yerləri bölüşüb. Buna görə təmsilçimiz fərdi qaydada mükafatlandırılaraq bürünc medala layiq görülüb. Bundan başqa, "Referans Türk" xəbər portalı şahmatçımızın çıxışını şərh edərək onu yarışın ən uğurlu iştirakçılarından biri kimi dəyərləndirib.

## Cüdoçu Ləman Bağırova beynəlxalq turnirin qalibi olub




Ölkəmizdə Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə Bakı Avropa Cüdo Ümidləri turniri keçirilir. Beynəlxalq yarışa 12 ölkəni təmsil edən 88 klubun 436 idmançısı (364 oğlan, 72 qız) qatılıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan Naxçıvan Şəhər Uşaq-Gənclər İdman (UGİM) Məktəbinin idmançısı Ləman Bağırova 15 yaşadək idmançılar arasında 36 kq çəki dərəcəsi üzrə birinci olub.

Ləman bu nəticə ilə Naxçıvan cüdoçuları arasında beynəlxalq turnir qalibi olan ilk idmançı olub.

Qeyd edək ki, Naxçıvan UGİM yarışda məşqçi Orxan Quliyevin rəhbərliyi ilə 4 oğlan və 1 qız idmançı ilə təmsil olunur. Turnirdə mübarizə davam edir.

## Araz-Naxçıvan avrokuboklarda növbəti mərhələyə yüksəlib

*UEFA Konfrans Liqasının II təsnifat mərhələsinin cavab görüşləri çərçivəsində "Aris" (Yunanıstan) doğma arenada "Araz-Naxçıvan"ı qəbul edib. Görüş heç-heçə başa çatıb (2:2) və muxtar respublika təmsilçisi növbəti mərhələyə yüksəlib.*

*Qeyd edək ki, bu görüşdə "Araz-Naxçıvan"ın futbolçusu İqor Ribeyro 52-ci dəqiqədə qırmızı vərəqə ilə meydandan uzaqlaşdırılıb.*

*Tərəflər arasında ilk görüşdə Naxçıvan təmsilçisi 2:1 hesablı qələbə qazanmışdı.*




## "Söz və qürurun zirvəsində: Hüseyn Razi" adlı monoqrafiya nəşr edilib




Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun "Söz və qürurun zirvəsində: Hüseyn Razi" adlı monoqrafiyası nəşr olunub.

Əsər XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Hüseyn Razinin həyat və yaradıcılığının kompleks tədqiqinə həsr olunub. Əvvəlcə şairin ədəbi irsini araşdıran tədqiqat əsərlərinin elmi əhəmiyyəti müəyyənləşdirilib və dəyərləndirilib, sonra onun poeziyası, dramaturgiyası, publisistik və tərcüməçilik fəaliyyəti, həmçinin bu günədək işıq üzü görməyən "Gündəlik"ləri araşdırılıb, milli ruhun qorunmasına, azadlıq ideyalarının ifadəsinə xidmət edən bədii-estetik meyarları təhlil edilib.

Monoqrafiya giriş, üç fəsil və nəticədən ibarətdir. Onu da qeyd edək ki, filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlinin "Hüseyn Razi yaradıcılığı yeni tədqiqat müstəvisində" adlı ön söz xarakterli yazısı da əsərdə yer alıb.

Birinci fəsil "Hüseyn Razinin ədəbi irsinin öyrənilməsi, dəyərləndirilməsi və əsərlərinin biblioqrafiyası" adlanır. Bu fəsildə şairin yaradıcılığının müstəqillik illərində aparılan tədqiqatlarda daha çox obyektivliklə dəyərləndirilməsi xüsusi şəkildə vurğulanıb.

Monoqrafiyanın əsasını "Hüseyn Razinin ömür yolu və bədii yaradıcılığı" adlanan ikinci fəsli təşkil edir. Bu fəsildə tədqiqatçı problem kimi qarşıya qoyduğu məqsədi mərhələli şəkildə həll etməyə nail olub. Şairin ömür yolu, lirikası, poemaları, dramaturgiyası, sənətkarlıq xüsusiyyətləri, tərcümələri araşdırma obyektinə çevrilib.

"Hüseyn Razinin publisistikası" adlı üçüncü fəsil isə ədəbi-tənqidi, elmi və ictimai-siyasi məzmunlu publisistik məqalələr və "Gündəlik"dən ibarətdir.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən 360 səhifəlik monoqrafiyanın elmi redaktoru AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev, rəyçisi isə filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlidir.

Hüseyn Razi yaradıcılığının müxtəlif istiqamətlərini işıqlandırmaq, onun ədəbi-bədii irsinin Azərbaycan ədəbiyyatındakı yerini müəyyənləşdirmək, gələcək nəsillərə bu qiymətli irsi daha sistemli və əsaslı şəkildə təqdim etmək, milli-mənəvi dəyərlər kontekstində ədəbiyyatımızdakı əhəmiyyətinin daha obyektiv şəkildə qiymətləndirilməsinə nail olmaq baxımından monoqrafiya olduqca faydalıdır.

## İtmişdir

Şərur rayonu, Şəhriyar kənd sakini Kazımov Nazim Adil oğluna məxsus JN-545$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kəndində yaşamış Cəfərov Bəşir Müseyib oğlunun adına olan JN-235 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Qurbanova Nailə Vilayət qızının adına olan JN-442$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini İmanova Şövkət Abdulla qızının adına olan JN-513$^{A}$ nömrəli, 10708018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək kənd sakini Məmmədov Tural Mürvət oğlunun və onun ailə üzvlərinin adına verilmiş JN-2829$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Bağır Hüseynəli oğlunun adına olan JN-1039$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Saltaq kənd sakini Əliyeva Cəmilə Hüseyn qızına məxsus 106013001628 reyestr, 1215005802 qeydiyyat nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Çalxanqala kənd sakini Əliyev Xudaverdi Bəhram oğlunun adına olan JN-333$^{B}$ nömrəli, 10300018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərəbad kənd sakini Məmmədova Zəminə Fərman qızının adına olan JN-0041 nömrəli, 10312048 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kəndində yaşamış Fətullayeva Gülü Nəzər qızının adına olan AA-007438 nömrəli, 14.03.2013-cü il tarixli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Heydərabad qəsəbə sakini Zamanov Nadir İslam oğlunun adına olan JN-842$^{B}$ nömrəli, 10101008 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində Novruzov Muqbil Xəlil oğlunun adına olan AA-003519 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kənd sakini İsmayılova Kəmalə Məhəmmədəli qızının adına olan JN-524$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Dizə kənd sakini İsgəndərova Gülnarə Ağahüseyn qızına məxsus JN-160$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Əli Məhərrəm oğluna məxsus JN-3007$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Sabirkənd sakini Məmmədov Həbib Bayraməli oğlunun adına olan JN-313$^{A}$ nömrəli, "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-112 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Yaycı kəndində yaşamış İsmayılova Şamama Salman qızına məxsus JN-919$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 203

Nömrəyə məsul: Aidə İbrahimova, Rafiq Təhməz, Elnurə Cəfərova
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.